Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

Fakültə: Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq
Kafedra: Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası

*Əlyazması hüququnda*

Allahyar Xəqani oğlu Baratov

"Fiziki tərbiyə dərslərində və dərsdənkənar məşğələlərdə yuxarı sinif şagirdlərinin vətənpərvərlik hisslərinin formalaşmasının tədqiqi"
Magistr dərəcəsi almaq üçün təqdim edilmiş

D İ S S E R T A S İ Y A

İxtisas adı və şifrəsi – 060802 Bədən tərbiyəsi və idman
İxtisaslaşma – Fiziki tərbiyə nəzəriyyəsi və metodikası

Elmi rəhbər: Ped.üzrə fəl.dok. Heydərova M.

Bakı – 2022

# MÜNDƏRİCAT


GİRİŞ…………………………………………………………………….....3

I FƏSİL. ƏDƏBİYYATLARI XÜLASƏSİ……………………………………..6

1.1. Vətənpərvərlik və fiziki tərbiyə anlayışlarının mahiyyəti…………………………6

1.2. Problemin tədris proqramlarda və elmi ədəbiyyatda qoyuluşu…………………..27

1.3. Fiziki tərbiyə dərslərində vətənpərvəlik tərbiyəsinin aşılanması………………...31

1.4. Dərsdənkənar tədbirlər vasitəsi ilə şagirdlərin vətənpərvərlik tərbiyəsinin imkanları……………………………………………………………………..35

II FƏSİL. PEDAQOJİ EKSPERİMENTİN TƏŞKİLİ, MÜZAKİRƏSİ, NƏTİCƏLƏRİ

2.1. Pedaqoji eksperimentin təşkili……………………………………………..45

2.2. Pedaqoji eksperimentin müzakirəsi………………………………………...51

NƏTİCƏLƏR...............................................................................................................59

TƏKLİFLƏR...............................................................................................................60

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.......................................................................61

# GİRİŞ

**Tədqiqatın aktuallığı.** Vətənpərvərlik tərbiyəsi müstəqil vətənimizi müdafiə etməyə hazır olmaq, vətənin yolunda qüvvə və bacarığını sərf etmək, lazım gəldikdə hətta canından keçmək keyfiyyətlərinin formalaşması kimi əsas mahiyyət daşıyır.

Müstəqil Azərbaycan dövlətini qoruyub saxlamaq və inkişaf etdirmək, onun sivil dövlətlər arasında öz yerini tutmasına nail olmaq üçün gəncləri vətənpərvərlik hissləri əsasında tərbiyə edən vasitələrdən biri də fiziki tərbiyə dərsləri və dərsdənkənar tədbirlərdir. Şübhəsiz ki, bir çox əməli vərdişlər, vətənpərvərlik hissləri yeniyetməlik və ilk gənclik dövrlərindən formalaşır. Bu gün fiziki tərbiyə müəllimlərinin qarşısında ilkin gənclik dövrünə qədəm qoyan yuxarı sinif şagirdlərində vətənpərvərlik tərbiyəsinin formalaşdırılması başlıca problem kimi durmalıdır.

**Tədqiqatın problemi.** Apardığımız müşahidələr göstərir ki, bu istiqamətdə müəyyən işlər görülmüşdür. Lakin bu heç də müasir tələblərə cavab verən səviyyədə deyil. Müşahidələrimizdən aydın oldu ki, yuxarı sinif şagirdlərinin əsl vətənpərvərlər kimi tərbiyə olunmasında bəzi çatışmamazlıqlar mövcuddur. Bu çatışmamazlıqlara: məktəblərdə lazımi səviyyədə vətənpərvərliklərlə bağlı tədbirlərin keçrilməməsi, müəllimlərin şagirdlərlə bu mövzu ətrafında söhbətlərin aparılmaması, yuxarı sinif şagirdləri arasında VMH yarışlarının çox az keçirilməsi. Bu boşluqların doldurulmasında təlim-tərbiyə ilə məşğul olan bütün qurumlarda, o cümlədən orta ümumtəhsil məktəblərində fiziki tərbiyə müəllimlər lazımi işlər görməlidir. Bu istiqamətdə geniş elmi tədqiqat işlərinin aparılmasına böyük ehtiyac vardır.

**Tədqiqatın obyekti.** Ümumtəhsil məktəblərinin fiziki tərbiyə dərslərində və dərsdənkənar tədbirlərdə yuxarı sinif şagirdlərində vətənpərvərlik hissinin formalaşdırılması prosesidir.

**Tədqiqatın predmenti.** Fiziki tərbiyə dərsləri və dərsdənkənar tədbirlər vasitəsi ilə yuxarı sinif şagirdlərində vətənpərvərlik hissinin formalaşdırılmasıdır.

**Tədqiqatın məqsədi.** Yuxarı sinif şagirdlərində vətənpərvərlik hissi tərbiyəsinin mahiyyətini, fiziki tərbiyə dərslərində və dərsdənkənar tədbirlərdə onların

vətənpərvərlik hisslərinin formalaşdırılmasında bədən tərbiyəsi və idmanın rolunu araşdırmaqdır.

**Tədqiqatın vəzifələri.**

1. Vətənpərvərlik tərbiyəsinin və fiziki tərbiyənin mahiyyətini araşdırmaq;

2. Problemlə bağlı mövcud elmi-pedaqoji ədəbiyyatı təhlil edərək ümumiləşdirmək;

3. Fiziki tərbiyə dərslərində və dərsdənkənar tədbirlərdə şagirdlərin vətənpərvərlik tərbiyəsini tədqiq edərək müəyyən nəticəyə gəlmək;

4. Problemlə bağlı pedaqoji eksperiment təşkil etmək nəticələri təhlil edərək müvafiq təkliflər hazırlamaq.

**Tədqiqatın fərziyyəsi.** Biz belə fərz edirik ki, fiziki tərbiyə dərslərində və dərsdənkənar tədbirlərdə yuxarı sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsi üzrə iş düzgün qurularsa, bədən tərbiyəsi və idmana maraq yaradılarsa, bu zaman şagirdlərin vətənpərvərlik tərbiyəsində uğur əldə etmək olar.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı nəzəri təhlil, sənədlərin öyrənilməsi, pedaqoji müşahidə, müsahibə, pedaqoji eksperiment, riyazi-statistik metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Fiziki tərbiyə dərslərində və dərsdənkənar tədbirlərdə şagirdlərin vətənpərvərlik tərbiyəsi tədqiqata cəlb edilərək öyrənilmiş, işin mahiyyəti, məzmunu araşdırılmış, bədən tərbiyəsi və idmanın şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığı təsdiq edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Nəzəri əhəmiyyəti ondan ibarətdir ki, fiziki tərbiyə dərslərində və dərsdənkənar tədbirlərdə şagirdlərin vətənpərvərlik tərbiyəsinin nəzəri və praktik məsələləri işlənilmişdir. Bunlar pedaqogika elminin müvafiq bölməsinin zənginləşdirilməsi baxımından əhəmiyyətlidir.

**Tədqiqatın praktik mahiyyəti.** İşin praktik mahiyyəti ondan ibarətdir ki, dərs və dərsdənkənar tədbirlərdə yuxarı sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsində müəllimlər və eyni zamanda bu sahədə aparılacaq tədqiqatlar zamanı işin nəzəri və praktik nəticələrinə istinad oluna bilər.

**Tədqiqat işinin quruluşu.** Giriş, 2 fəsil, 6 yarımfəsildən, nəticə, təkliflər və ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL

# ƏDƏBİYYATLARIN XÜLASƏSİ

## 1.1. Vətənpərvərlik və fiziki tərbiyə anlayışlarının mahiyyəti

Bildiyimiz kimi fiziki tərbiyə böyüməkdə olan gənc nəslin ümumi tərbiyəsinin əsas tərkib hissələrindən biri sayılır. İndiki vaxt da gənc nəslin ümumi tərbiyəsinin qarşısında duran əsas və mühüm vəzifələrdən biri də onların hərtərəfli inkişafına nail olmaq hesab olunur. Fiziki cəhətdən ahəngdar şəkildə inkişaf etmiş, sağlam, gözəl qamətli, qüvvətli və gümrah bir adam olduqda, o hərtərəfli inkişaf etmiş insan sayılır. Fiziki tərbiyə sadaladığımız həmin keyfiyyətlərində məktəblilərdə formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə belə desək fiziki tərbiyə ilə müntəzəm və ardıcıl şəkildə məşğul olanlar qamətli, şən, gümrah, sağlam inkişaf edirlər. Uşaqlar da fiziki tərbiyə ilə məşğul olduqda, onlarda həyat üçün zəruri sayılan hərəki keyfiyyətlər də qazanırlar (sürət, qüvvə, güc, iradə möhkəmliyi və s.). Onlar zehni cəhətdən də yaxşı inkişaf etmiş olur.

İlk öncə fiziki tərbiyə anlayışı haqqında məlumat verək. XIX əsrdən başlayaraq fiziki tərbiyə anlayışı “geniş” və “dar” mənasında iki mənada işlədilmişdir. Fiziki tərbiyənin uşaq orqanizminə mütəşəkkil təsiri bütün orqanların düzgün inkişafına, onların funksiyalarının yaxşılaşdırılmasına, fiziki qüvvələrin artırılmasına, ətraf mühitin zərərli təsirlərinin qarşısının alınmasına, müqavimətin artırılmasına və sağlamlığın möhkəmləndirilməsinə yönəldilmişdir.

Fiziki tərbiyənin əsas nailiyyəti onun hər şeydən əvvəl normal gigiyenik şəraitin yaradılması, bədənə qulluq və fiziki hərəkətlərin tətbiqinə xidmət etməli idi. Bəzi müəlliflər isə axrıncını düzgün hesab etmirdilər. "Fiziki inkişaf" termini bu şəkildə dar mənada fiziki tərbiyənin yönəmi təsvir etmək üçün istifadə edilmişdir.

Fiziki tərbiyə dar mənaya nisbətən geniş məna anlayışı Avropa və ABŞ ölkələrində daha geniş yayılmışdır. Avropa ölkələrində digər anlayışlara nisbətən geniş məna anlayışına xeyli üstünlük verilmişdir. Qeyd etmək lazımdır ki, fiziki tərbiyədə

işlərin təkmilləşdirilməsi üçün fiziki inkişafa, sağlamlığın möhkəmləndirilməsinə, hərəkətverici hazırlığa yiyələnmək lazımdır. Eyni zamanda, bir sıra məşhur alimlər sonuncunun psixikaya, intellektə, iradəyə, duyğuya, əxlaqa və s. təsir etdiyini sıx bağlı olduğunu göstərmişlər.

Tarixə nəzər salsaq görərik ki, fiziki tərbiyə anlayışı hələ XIX əsrin ikinci yarısında sosialist inqilabından çox əvvəl yaranmış və bizim bugünki günümüzə gəlib çatmışdır. Fiziki tərbiyə 1920-ci ildən başlayaraq isə "fiziçeskaya kultura" anlayışı ilə əvəz edilmişdir. Daha dəqiq desək, «fiziki tərbiyə» anlayışı ədəbiyyatlarda və danışıqda az-az istifadə olunmağa başlanmış və onun mövqeyi tədricən zəiflədilmişdir.

Artıq 1930-cu illərdə belə desək "Fiziki tərbiyə" anlayışı tamamilə unudulmuşdur. Tədris-tərbiyə işlərinin təkmilləşdirilməsinə, xüsusən:

1) gigiyenaya xüsusi diqqət ayrılır onun vəzifələrinin (sağlamlıq) həyata keçməsinə önəm verilir;

2) təhsil vəzifələrinə ciddi şəkildə fikir verilir ki, bura daha çox vacib olan hərəkətlərə yiyələnmək, ümumi koordinasiya qabilliyyətini inkişaf etdirmək, hərəki bacarıq və vərdişləri formalaşdırmaq və hərəki fəaliyyətə lazım olan zəruri biliklərin mənimsənilməsi aid edilir.

M.N.Skatkin məktəb təhsilinin məzmununun hərtərəfli sistemi izah edir və deyir: şagirdlərin əqli və fiziki qabilliyətlərin inkişafını təmin etmək bilik, bacarıq və vərdişlərə yiyələnməklə eyni zamanda dünyagörüşünün və mənəviyyatının əsasları, eləcə də müvafiq davranışları təkminləşdirir, onları həyata və əməyə hazırlayır [61, s. 22-25].

Daha sonra isə alimlər, mütəffəkirlər fiziki tərbiyə ilə bağlı bir sıra fikirlər irəli sürmüşdülər. Hər biri fiziki tərbiyəyə müxtəlif formada təriflər vermişdir. Biz bu fikirlərə misal olaraq aşağıdakıları qeyd edə bilərik.

N.V.Savin "Теория и методика физического воспитания" dərsliyinə istinad edərək yazmışdı ki, "fiziki tərbiyə - pedaqoji prosesdir, insan orqanizminin morfoloji və funksional təkminlləşməsinə, həyat üçün vacib sayılan əsas hərəki bacarıqların, onlarla əlaqədar biliklərin formalaşmasına və yaxşılaşmasına istiqamətləndirilmişdir" [60, s. 6-9].

V.N.Semenov yazırdı ki, “fiziki tərbiyə – şəxsiyyətin hərtərəfli formada inkişafının komponenti və onun kommunist tərbiyəsinin ən mühüm vasitələrindən biridir” [62, s.100].

A.İ.Borisov qeyd edirdi ki, fiziki tərbiyə ümumi tərbiyənin mühüm tərkib hissəsidir. Üstəlik, tarixi xarakter daşıyır, sinifli cəmiyyətdə isə o sinifi xarakter daşıyır. Fiziki tərbiyəyə ictimai hadisə kimi baxdıqda, o, maddi həyat şəraitinin yaxşılaşdırılması ilə birlikdə meydana çıxır və inkişaf edir. O, insanların fiziki və mənəvi inkişafının cəmiyyətin tələbatına uyğun təmin edir, eləcə də onları əməyə və müdafiə fəaliyyətinə hazırlayır.

Azərbaycan pedaqoqları da öz növbəsində şagirdlərimizin təlim-tərbiyəsində çox mühüm rol oynayan fiziki tərbiyə anlayışı ilə bağlı özlərinə xas fikirlər irəli sürmüşlər. Onlar daha çox fiziki tərbiyəni pedaqoji prosesilə əlaqələndirmişlər və müvafiq tədqiqatlar aparmışlar.

M.Ə.Muradxanovun rəhbərlik etdiyi “Pedaqogika” kitabında (1964-cü ildə nəşr olunmuşdur) o fiziki tərbiyəni ümumi tərbiyənin tərkib hissəsi adlandırıdı. Qeyd edirdi ki, fiziki tərbiyə şagirdlərin bədənlərinin möhkəmləndirməyə, ahəngdar və hərtərəfli şəkildə inkişafına xidmət etməkdən ibarətdir [39, s.45-46].

Başqa bir mütəffəkirmizin fiziki tərbiyə ilə bağlı dediyi fikirə nəzər yetirək. N.M.Kazımov fiziki tərbiyəni tərbiyənin ən mühüm tərkib hissəsi hesab edirdi və yazırdı: fiziki tərbiyənin əsas xüsusiyyətlərdən biri də onun ideyallığıdır, ideyası ondan ibarətdir ki, siyasi tərbiyəyə və ən əsasda əxlaq tərbiyəsinə xidmət etməsidir. Düzgün qurulmuş, təşkil edilmiş fiziki tərbiyə məşğələsi insanların təkcə sağlamlığını təsir göstərmir eyni zamanda, onların mənəviyyatına da çox güclü təsir göstərir, iradə kamilliyinin artırmasına köməklik göstərir.

N.M.Kazımovun elmi-pedaqoji işində göstərmişdir ki, fiziki tərbiyə orqanizmin sistemlərin ahəngdar inkişafına təkan verən fizioloji prosesdir. Gənclərimizi vətənin müdafiəsinə, ictimai faydalı və məhsuldar əməyə hazırlayır. [25, s.78-80].

Y.R.Talıbov, Ə.A.Ağayev və başqa müəlliflərin hazırladıqları dərs vəsaitlərində qeyd olunur ki, fiziki tərbiyə məqsədyönlü şəkildə, planlı və mütəşəkkil proses olmaqla yanaşı, həm də şagirdlərin canının sağlığını təmin etməyə, fiziki qabiliyyətlərinin

inkişafına mütəhərrik vərdişlərinin və onların bacarıqların formalaşdırılmasına xidmət edir.

Dərsliklərdə bir daha deyilir ki, fiziki tərbiyə şagirdlərin bədənin quruluşlarının düzgün inkişaf etməsini, qamətlərinin gözəlləşməsini, hərəki keyfiyyətlərini bura aiddir: gücün, hərəkət sürətinin, çəldlik və dözümlüyün, elastikliyin inkişafını və formalaşmasını özündə təzahür edir. Bundan əlavə olaraq bu da qeyd olunur ki, fiziki tərbiyə şagirdləri əmək, iradə, kollektivçilik, və s. keyfiyyətləri inkişaf etməsinə köməklik göstərir [52, s. 32].

Fiziki cəhətdən daha yaxşı inkişaf etmiş şəxslər ictimai həyatda və yaxud təsərrüfat quruculuğunda başqalarından fərqlənirlər. Onlar daha yaxşı işləyir, işə olan həvəsləri daha güclü şəkildə olur, işləmək qabiliyyəti artır, yaradıcılıq və çalışqanlıq hissləri yüksəlir həm də onların əmək məhsuldarlığı lazımi səviyəyə çatır.

Yuxarıda göstərdiyimiz fiziki tərbiyə anlayışı ilə bağlı həm bizim həmdə xarici müttəfəkkirlərin fiziki tərbiyə bağlı irəli sürdükləri fikirlər ümumiləşdirilərək sonda belə bir nəticəyə gəlinmişdir ki, fiziki tərbiyə - ümumi tərbiyənin tərkib hissəsi olmaqla o uşağın orqanizminə mütəşəkkil təsir göstərən, bütün orqanlarının düzgün inkişafı etməsinə, onların funksiyalarının təkmilləşdirilməsinə, hərəki keyfiyyətlərinin artmasına, bədən tərbiyəsi və idman yönümdə əldə edilmiş bilik, bacarıq və vərdişlərin gənc nəslə ötürülməsi məqsədinə yönləndirilmişdir.

Məktəblərimizdə şagirdlərin əməyə hazırlanmasında, onların sağlam olmasında, fiziki cəhətdən güclü olmasında fiziki hərəkətlərin öyrədilməsinin böyük əhəmiyyəti vardır. Yeriş, qaçış, tullanma, qaməti düzgün inkişaf etdirən və s. kimi hərəkətlərin şagirdlərə öyrədilməsi olarda qüvvə, sürət, dözümlülük, çeviklik, elastiklik kimi fiziki və psixoloji keyfiyyətlərin tərbiyə olunmasına köməklik edir və bu da onları dolayı yolla əməyə hazırlayır. Şagirdlər fiziki hərəkətlərlərdən müntəzəm şəkildə məşğul olduqları zaman onlar fiziki cəhətdən möhkəm və sağlam olur, hər hansı bir işi daha tez və keyfiyyətlə şəkildə yerinə yetirirlər.

Apardığımız müşahidələr göstərir ki, fiziki tərbiyə cəmiyyətdəki yaranan ümumitərbiyənin mühüm tərkib hissəsi hesab olunur. Fiziki tərbiyə pedaqoji prosesə aid bütün ümumi əlamətlərin özündə ethiva edir.

Təcrübələrdən belə görmək olar ki, fiziki tərbiyə dərslərinin lazımi səviyyədə keçirilən məktəblərdə şagirdlərin xəstəliklə bağlı buraxdıqları dərslərin miqdarı aşağı düşür.

Fiziki tərbiyənin əsas 2 spesefik istiqaməti vardır. Bunlar:

1. Hərəkətlərin təlimi

2. Fiziki qabiliyyətlərin tərbiyəsi. (Şək. 1.1.).

1. Hərəkətlərin təliminin - əsasını fiziki təhsil təşkil edir. Yəni insanlar sistemli şəkildə özlərinin fiziki fəaliyyətləri haqqında bilik, bacarıq və vərdişlər əldə edirlər. Fiziki hərəkətlərin təliminin belə desək əsas məqsədi çox az enerji və vaxt sərf etməklə daha çox iş görmə qabiliyyətinə nail olmaqdan ibarətdir. Burada müəllim ilə tələbənin razılığı əsas şərtlərdən biri hesab olunur və fiziki təhsil prosesində pedaqogika elminin əsas qanunauyğunluqlarını onun prinsiplərini, metodları, öyrənilməsi təşkil edir.

2. Fiziki qabiliyyətlərin tərbiyə olunması və onların idarə olunmasının əsasını fiziki yükün verilməsi, təbii amillərdən və həyat şəraitindən düzgün şəkildə istifadə olunması dayanır.




Şək.1.1. Fiziki tərbiyənin əsas spesefik istiqamətləri

"Fiziki tərbiyə vasitələrindən onlardan düzgün şəkildə istifadə olunması insanların intellektual inkişafı və əmək qabiliyyətinin artırılmasına müsbət təsir göstərir. Orta təhsilin məzmununu yenilənməsi, təlimin idrak fəaliyyətinin intensiv şəkildə artması uşaq orqanizminin inkişafına daha çox tələblərin irəli sürülməsinə

zəmin yaradır. Gün rejimi şəraitində fiziki tərbiyə dərslərinin orqanizmin funksional iş qabiliyyətini, uşaqların əqli və fiziki iş qabiliyyətini artırır”.

Göstərdiyimiz sitatdan da belə nəticəyə gələ bilərik ki, fiziki tərbiyə uşaq, yeniyetmə şəxsiyyətinin intellektual inkişafına və əmək qabiliyyətinin artırılmasına güclü təsir göstərir.

Başqa bir fikirə diqqət yetirək:

Fiziki tərbiyə təlimində, məşğələsində öyrədilən hərəkətlərin hər birinin təhsil, tərbiyə və gigiyenik əhəmiyyətinin konkret nümunələr vasitəsi ilə göstərməyə çalışmaq zəruridir. Uşaqların hərəki tələbatlarının hərəki ödənilməsi və yaxud maraq və əyləncəlilik onların fiziki tərbiyə dərslərində fəallığının və şüurluluğunun artmasının əsas amilidir”.

Fiziki tərbiyə məşğələlərində ritmililiyin gözlənilməsi, bilik, bacarıq və vərdişlərin aşılanması, müvazinət hərəkətlərinin mənimsədilməsi şagirdlərin əməyə hazırlanmasında mühüm rol oynayır.

İbtidai məktəbin fiziki tərbiyəsinin qarşısında müasir şəraitdə müvafiq vəzifələr qoyulmuşdur ki, bunlar da əqli, estetik və əmək tərbiyəsi ilə, xüsusən əxlaq tərbiyəsi ilə sıx əlaqədə həyata keçirilir. Həmin vəzifələr bunlardır:

1. Şagirdlərin sağlamlığının möhkəmləndirilməsi
2. Fiziki inkişafının təmini.

Şagirdlərin sağlamlığının möhkəmləndirilməsi və fiziki inkişafının təmini əsasən bədən tərbiyəsi dərslərində, dərsəqədər səhər gimnastikasında, bədən tərbiyəsi dəqiqələrində, böyük tənəffüslərdə, sinifdən və məktəbdənkənar məşğələlərdə, turist yürüşlərində həyata keçirilir. Bu o zaman faydalı ola bilər ki, əvvala, həmin məşğələlərin təşkili üçün müvafiq şərait yaradılsın, məşğələlər lazımi ləvazimat və avadanlıqlarla təmin olunsun, ikinci bu iş pedaqoji kollektiv, müəllimlər, valideynlər həmin bədən tərbiyəsi tədbirlərinin həyata keçirilməsində birgə fəaliyyət göstərsinlər.

Gözəl görünmək, kamil bir insan olmaq arzusu təbii hal olduğu kimi, uşaqlarında fiziki tərbiyə dərslərində müntəzəm şəkildə davam etmələri yəni, düzgün qidalanmaq, gün rejimin qaydalarına düzgün riayət etmək onlar üçün etibarlı stimul

sayılır. Uşaqlarımıza onuda öyrətməliyik ki, "əzələ karseti" düzgün formada inkişaf etməzsə, gözəl bədən quruluşu, qüsursuz qamət ola bilməz [21, s. 55].

Ədəbiyyatda qeyd edildiyi kimi gözəl qamətin formalaşması üçün düzgün qidalanmaq lazımıdır.

Əlbətdəki fiziki tərbiyə ilə də müntəzəm şəkildə məşğul olmaq lazımıdır. Bir cəhətə də xüsusi diqqət yetirməliyik bu şagirdlərin sağlamlığının möhkəmləndirilməsi, düzgün formada fiziki inkişafı etməsi - onların təmiz havada gəzmələri, təbii amillərdən düzgün olaraq istifadə etmələrindən asılıdır.

Yuxarda qeyd etdiklərimizlə bağlı bir sitata nəzər yetirək:

Azərbaycanın görkəmli təbiətşünas alimlələrindən biri olan H.B.Zərdabi özünün «Gigiyena» əsərində havanın təmizliyi haqqında belə yazırdı: "Hava gərək təmiz olsun, onun pak olması həyat, xarab olması ölümdür".

Deməli belə nəticəyə gələ bilərik ki hər kəsin sağlam olması üçün fiziki hərəkətlərdən istifadə edərkən təmiz havanın təmizliyinə də mütləq diqqət yetirilməlidir.

Fiziki tərbiyə – ümumi tərbiyənin bir növüdür. O, hərəkət vərdişlərinin formalaşmasına və insanların fiziki qabiliyyətlərinin inkişafına yönəldilmiş pedaqoji prosesdir. O cəmiyyətlə birgə yaranır və cəmiyyətin qanunları ilə inkişaf edir. Fiziki tərbiyə insanın hərtərəfli inkişafında əsas yerlərdən birini tutur və tərbiyənin başqa növləri ilə sıx əlaqədardır.

Fiziki tərbiyə və idman sahəsi üzrə aparılan elmi-tədqiqat işlərinin məqsədi yaşından, etnik mənşəyindən, sağlamlıq vəziyyətindən asılı olmayaraq, hər kəsin idman fəaliyyəti dairəsinin genişləndirilməsi məsələsini həll etmək, idman və gənclər təşkilatlarının, klubların, cəmiyyətlərin, həmçinin məşqçi və könüllülərin dinamik şəbəkəsini yaratmaq, idmanla kütləvi şəkildə məşğul olmaq üçün insanların problemlərinin həll yollarını tapmaqdır. Fiziki tərbiyə və idmanın kütləviliyini təmin etmək günümüzün vacib məsələlərindəndir. İdmanın kütləviliyi gənc nəslin mənəvi və fiziki inkişafı üçün vacibdir.

Fiziki tərbiyə insanın fiziki cəhətdən təkmilləşməsinin idarə olunmasının ümumi qanunauyğunluqlarına əsaslanan bir elm olmaqla, həm də ümumi pedaqoji qanunauyğunluqlara istinad edir.

Fiziki tərbiyə eyni zamanda şagirdlərdə şüurlu intizam tərbiyəsinin formalaşmasında mühüm rol oynayır. Məsələn: gimnastika, yüngül atletika, habelə digər oyunların icrası, məşq və yarışların qaydalarına düzgün əməl etmək şüurlu intizamın ən əsas başlıca şərtlərindəndir.

A.S.Makarenko oyunu onun intizamı möhkəmlədən vasitə hesab edərək belə yazırdı: “İntizamı möhkəmlətmək üçün müxtəlif üsullar vardır. Mən oyunu ən mühüm tərbiyə yollarından biri hesab edirəm. Uşaq kollektivinin həyatında ciddi, məsul və işgüzar oyun böyük yer tutmalıdır” [58, s. 221]

Fiziki tərbiyənin mövzusu Azərbaycan fiziki tərbiyə sisteminin məqsədini, vəzifələrini, prinsiplərini və tərbiyənin digər tərkib hissələri ilə əlaqəsini öyrədir. Bundan əlavə, fiziki tərbiyənin mövzusu fiziki tərbiyənin vasitələrini, formalarını bu prosesdə tətbiq olunan metodları, prinsipləri, metodikanı izah edir. Məktəb yaşlı uşaqların fiziki keyfiyyətlərinin inkişafı, hərəki bacarıq və vərdişlərinin formalaşması yollarını mənimsədir.

Fiziki tərbiyənin mövzusu keçmişdə mövcud təcrübəni, həmçinin müasir təcrübəni öyrənir, təhlil edir, ümumiləşdirir. Azərbaycan fiziki tərbiyəsinin mövzusu milli dəyərlərə əsaslanır, milli oyunların, idman növlərinin inkişafına xidmət edir. Fiziki tərbiyə digər elmlərlə də əlaqədardır. Xüsusilə, anatomiya, biologiya, fiziologiya, gigiyena, kimya və s. Fiziki tərbiyə psixologiya, pedaqogika elmləri ilə də sıx bağlı olmaqla yanaşı, bu elmlərə əsaslanaraq təlim olunur.

Vətənpərvəlik anlayışının mahiyyətindən danışmış olsaq hər bir müstəqil dövlətinin qarşısında duran ən öndə məsələlərdən biri də gələcəyini etibar edə biləcəyi sağlam ruha, əqidəyə, düşüncəyə sahib olan nəslin yetişdirməkdən ibarətdir.

Vətənpərvəlik hər bir fərdin öz torpağına, millətinə, xalqına duyduğu sevgi ilə möhkəm bağlılıqdır. Vətənpərvərlik anlayışının hələ qədim dövürdə müxtəlif mənaları var idi. XVIII əsrdə Amerika və Fransada gedən inqilablar zamanı, bu anlayış inqilabi ideologiya ilə əlaqələndirilmişdir və "millət" anlayışı ilə eyniləşdirmişlər. Bu anlayışı

ümumiyyətlə tarixin müəyyən dövrlərində fərqli mənalarda işlədilsədə, vətənpərvərliyi millətçiliyə yaxın bir anlayış formasında qəbul edilsədə, amma heç vaxt vətənpərvərlik millətçiliyi təbliği ilə bağlı bir anlayış olmamışdır. XIX əsrin əvvələrində artıq vətənpərvərlik anlayışı millətçiliklə bağlı olan anlayış kimi işlədilməyə başlanmışdı. XVIII əsrdə Avropa ölkələri vətənpərvərlik anlayışını dövlətlə yanaşı eyni zamanda kilsəyə bağlılığı bildirən amil kimi qəbul etmişdilər. Sonralar isə vətənpərvərlik anlayışı təkminlləşdirilmiş və yeni dövlətlərin, milli-azadlıq hərəkatlarının yaranması zamanı və bundan əlavə müharibələr gedən bir müddətdə daha da aktuallaşmışdır. Qeyd edə bilərəm ki, tarixin bütün dövrlərində vətənpərvərlik daima çox mühüm rollarda birini oynamışdır.

İnsanlarda vətənpərvərlik hisslərinin formalaşmasının, tərbiyə edilməsinin əsas mahiyyəti belə desək vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda fəda etməyi, həmçinin milli-mədəni dəyərlərin qorunmasını, təbliğini və s. əsaslanan emosional bağlılıqla eyniləşdirə bilərik. Bu bağlılıq həm də insanın özünün aid olduğu millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürur kimi də hallanır. Vətəninin milli-mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir.

Vətənpərvərliyin əlbəttdəki ən əsas mənası isə vətəni sevmək, onu qorumaq, vətən üçün lazım olan hər fədakarlığı etmək hissidir. Bu gün ölkəmizdə vətənpərvərlik anlayışının mənası daha çox torpağa, vətənə bağlılığı ifadə edir. Bildiyimiz kimi vətənimizin zəngin olan tarixi və yaxud xalqımızın müxtəlif vaxtlarda öz torpağını qorumaq, müdafiə etmək üçün apardığı mübarizələr, müstəqilliyi əldə etmək üçün verilən mücadilələr haqqında biliklər əldə edir və bu biliklərdə daha sonra əqidəyə çevrilərək yeniyetmələrimizdə, gənclərimizdə vətənpərvərlik hisslərini daha da gücləndirir. Dediklərimizdən bir daha aydın olur ki vətəpərvəlik böyük məfhumdur.

Vətənpərvərlik hissinin tərbiyəsində əhəmiyyətini və qiymətini dəyərləndirən Respublikamızın Ümumimilli Lideri Heydər Əliyevin gənclərin I Respublika forumunda gənclərə, hər bir, müəllimə, şagirdlərə müraciət edərək demişdir:

“Gələcəyimizin milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərimizin əsasında tərbiyələnməlidir.

Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Bu sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik”

[18, s. 5].

Bildiyimiz kimi, sağlam əqidəyə malik olmaq, sağlam düşüncə ilə bağlıdır. Bütün bunların da kökündə fiziki və mənəvi cəhətdən sağlam tərbiyə olunan gənclik durur.

Xarici ölkələrdə də olduğu kimi ölkəmizdə də gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi xüsusi diqqət mərkəzindədir. Sağlam ruhda böyüyən yeniyetmə və gənclərimiz ölkəmizin əsgərləri, vətəninimizin keşikçiləri hesab olunur. Aydındır ki, vətəni fiziki cəhətdən sağlam insanlar qoruyurlar. Bu gün gənclərimizin qarşısına qoyulan əsas vəzifələrdən biri milli mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik və mənəvi tərbiyə məsələləridir. Mənəviyyat olmayan yerdə milli mənlik şüurundan, vətənpərvərlikdən heç vaxt söhbət belə gedə bilməz. Biz tarixə nəzər salsaq görərik ki şəxsiyyətləri dünyada tanıtdıran və bizlər üçün örnək olan məhz onların yüksək mənəviyyatı və yüksək amallarıdır.

Azərbaycan Milli Elmlər Akademiyasının təmsilçisi Pərvanə Əzimova qeyd edir ki, məktəblilərimizin, gənclərimizin vətənpərvərlik ruhunda büyüdülməsi müharibə vəziyyətində yaşayan ölkəmiz üçün çox önəmlidir: “Gənclərimizə milli ruhda yetişdirilməsi onlara körpə yaşlarından artıq həyata keçirilməlidir, bu daha çox bağçalarımızda, məktəblərimizdə, qəzet və televiziyalarda özünü güclü şəkildə göstərməlidir. Müasir dövrümüzdə təhsilimizin qarşısında qoyulmuş əsas vəzifə vətəndaşlar yetişdirmək də məhz bu sistemli, ardıcıl təşkil olunan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır. Ümumiyyətlə fikirləşirəm ki, tədris etdiyi fənnindən asılı olmayaraq hər bir müəllim öz şagirdlərinə vətənpərvərlik duyğusunu, hissini öyrətməyi mütləq şəkildə bacarmalıdır.

Düşünürəm ki, bu gün biz vətənimizə olan borcumuzu savadlanmaqla, sabah isə müstəqillik əldə etdiyimiz ölkəmizin ordusunda vuruşmaqla, iqtisadiyyatında və onun müxtəlif ictimai-mədəni həyatın sahələrində, müxtəlif peşələrdə çalışmaqla ödəyəcəyik. Bu, bizim hər birimizin şərəfli işi olmalıdır həm də vətəndaşlıq borcumuzdur. Vətən dedikdə anadan olduğumuz, göz açdığımız doğma yurdumuzdan elə bizim özümüzdən başlanır. Hamı vətəninə olan sevgisini, məhəbbətini, varlığıyla vətənini öz şəxsiyyətində, şərəfində, yaşatmalıdır. Bu gün hamımızın əsas vəzifələrindən biri də xalqımıza vətənpərvərlik, vətənin torpağına onun uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, və təbliğ etdirməkdir" [6, s. 7-9].

Belə bir sual vermiş olsaq bəs vətən sevgisi nədir? Biz bu haqqda fikirləşmiş olsaq mücərrəd görünsədə bu anlayış amma əslində konkret əməllərlə təzahür olunur. Vətəni daim sevmək, onun naminə yaşamaq, lazım gələrsə uğurunda canından keçmək, ona həmişə xidmət göstərmək üçün hər hansısa bir sənət, peşə sahibi olmağa ehtiyac yoxdur. Fəhlə də, müəllim də, həkim də, mühəndis də vətən üçün yaşaya, öz əməli ilə vətənin şöhrətini yüksəklərə qaldıra bilər. Bunun üçün yalnız kifayətdir ki, ürəkdə təpər, vətənə qarşı sevgi, istək, təəssübkeşlik olsun.

Peyğəmbərimiz buyurmuşdur ki, " Vətəni sevmək imandandır". Nəticə etibarı ilə, yaradanını, yaradılış səbəbini, özünü, kimliyini tanıyan insanda, şübhəsiz ki, doğma diyarına güclü bağlılıq hissi yaranar. Əks halda, bu torpağın üstündə yaşamaq, bəhrəsini götürmək bizim mənəvi dəyərlərimizlə birbaşa ziddiyyət təşkil edərdi.

Ensiklopedik mənbələrə görə, vətənə məhəbbət insanın öz millətinin rifahı naminə öz mənafeyini qurban verməyə hazır olmasına əsaslanan emosional bağdır. Mənsub olduğunuz icmanın etnik, mədəni, siyasi və tarixi keyfiyyətlərinə əsaslanaraq, bu əlaqə həm də milli hiss və ya milli qürur kimi qəbul edilir. Öz ölkəsinin xarakterini və mədəni sərvətlərini qorumaq və özünü bu dəyərlərlə eyniləşdirmək, o cümlədən öz xalqının mənafeyini qorumaq və başqa şeylər vətənpərvərlik xüsusiyyətidir. Vətənpərvərlik tarixinin kökündə minilliklər boyu yaşayıb möhkəmlənən, xalqının torpağına, dilindən, adət-ənənələrinə kök salmış bir dövlətə mənsubluq hissi dayanır. Vətənpərvərlik ölkənin yaradılması və dövlətçiliyin qurulması çərçivəsində ictimai fikrin xas cəhətinə çevrilir və o, dövrün milli inkişafı miqyasını əks etdirir.

Belə deyə bilərik ki, hər birimizdə olan vətən sevgisi hər kəsin doğulduğu boya-başa yetdiyi elə və obaya, torpağa, məhəbbətindən qaynaqlanır. Vətənpərvərlik deyə bilərik həm də insanlarda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığımız mübarizədə bizdə inam hissini gücləndirir. Vətənpərvərliklə bağlı araşdırmalar apardığımız zaman bir daha öyrənirik ki vətənpərvərlik anlayışı özündə vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, millətə xidmət etməyi birləşdirirsə, bunların zirvəsində ən əsas vətən üçün ölüməyə, öz canınını vətən yolunda qurban verməyə daim hazır olmaq dayanır. Bu vətənpərvərliyin ən uca və ali formasıdır.

Ünlü şairlərimizdən biri olan Məmməd Araz vətəni daima sevən və ona bağlı olan vətən övladlarının doğma Azərbaycanımıza bəslədikləri sevgini, məhəbbəti və əbədi minnətdarlıq hissini bir yerdə birləşdirərək belə yazmışdır:

Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim [71, s. 1-3].

Doğurdan da biz Məmməd Arazın bu misralarını deyərkən hər birimizin düşücəsində, qəlbində vətən torpağına qarşı sevgi hissi formalaşır.

Belə qeyd edə bilərik ki, vətən təkcə torpaq, yurd saldığımız ərazi deyil. Vətən hər birimizik mənəm, sənsən, odudur. Vətənimizin keçmişinə, bu gününə, gələcəyinə mütləq formada cavabdeh olmalıyıq.

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirsək deyə bilərik ki, vətən və vətəndaşlıq ideyalarının əsasında vətənpərvərlik hissi dayanır. Millətini sevməyən insanın ona və ya sevən başqalarına emosional bağlılığı olmur. Doğma ərazisinin az da olsa gözəl yer olduğuna inanan hər kəs özünü mümkün olan ən dəhşətli cəzaya – mənəvi ölümə məhkum edir. Vətənpərvərlik insanın qanına, ruhuna hopur və insanın həyatda sahib ola biləcəyi ən böyük dəyərə çevrilir.

Əsgərlərimiz döyüş meydanında düşmənə qarşı vuruşur, vətən olan borcunu səngərdə yerinə yetirir, müəllimlərimiz öz şagirdlərinə vətənlə bağlı biliklər verir, onlarda vətən sevgisi formalaşdırır, fəhlənin, mühəndisin əməyi ilə isə ölkəmizin iqtisadi gücünü artırılır. Bildiyimiz kimi vətəndaşlıq borcu birinci növbədə insanın yaşadığı, boya-başa çatdığı torpaqla və vətənlə bağlıdır. Hər bir vətənini sevən insan üçün onun vətən torpağı səcdəgah, toxunulmaz, müqəddəs hesab olunur. Əsl

vətəndaşda odur ki, vətənini, torpağını qəlbi, canı və qanı ilə sevir. Onun azad olması və istiqlaliyyəti uğrunda daim canınından keçməyə, qurban verməyə hazırdır. Vətən yolunda canından, qanından keçən qəhrəman əsgərlər əbədi bir həyata qovuşurlar və şərəfli ad olan şəhid adı qazanırlar.

İnsanların vətənpərvərlik ruhunda formalaşmasında min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə, adət və ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətçiliyin birgə formalaşması şəraitində vətənpərvərlik onun inkişafının ümummilli anlarını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir.

Tarixən, öz vətənini qoruya bilməyənlər, torpağına sahib çıxa bilməyənlər vətənsiz qalmış və həmişə yağmaçılara qul olmuşlar, əriyib bir heçliyə qarışmışlar. Azərbaycan xalqının qədim zamanlardan daima soy-kökü olmuşdur. Azərbaycan xalqı isə min illərdən bəri öz vətənini sevib və qoruyan olmuş, bu gün də bu mövcudluğunu saxlayan, davam etdirən  insan toplumlarındandır.

Bunun nəticəsidir ki, hazırda dünyadakı 50 milyonluq Azərbaycanlının böyük əksəriyyəti öz ata-baba yurdunda yaşayır. Müasir dünyada əhəmiyyətli nüfuz qazanmış bu mədəniyyətin 10 milyonluq əhalisi isə qədim vətəninin şimal hissəsində öz dövlətini qurmuşdur.

Qədim zamanlardan bu günümüzə kimi vətənpərvərlik məsələsi insanlarımızın ən əsasda əlbəttdə ki uşaqlarımızın, yeniyetmələrimizin, gənclərimizin vətənə olan sevgilərinin formalaşdırlması, bu ruhda böyümələri cəmiyyətimizdə daim aktual olmuşdur və bu gün də aktual olaraq qalmaqdadır. Millətimizin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir desəm, yəqin ki, yanılmaram. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür. Onlara nəsillər boyu qanlar bahasına miras qalmış vətəni Azərbaycan Respublikasının hər bir övladı bu dövlətin vətəndaşı kimi sevməli və ona xidmət etməlidir. Vətən bu dövlətin hər bir vətəndaşı tərəfindən müqəddəs əmanət kimi qorunmalıdır.

Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amillərdən biridir. Əgər biz tarixi keçmişimizə nəzər salsaq, görərik ki, Azərbaycanın tarixi boyu igid, cəsur oğulları,

qeyrətli qızları həmişə vətənpərvər olmuş, işğalçılara qarşı qəhrəmancasına mübarizə aparmış və vətənimizi düşmən ayağına verməmişlər.

Danışdıqlarımızdan belə nəticəyə gələ bilərik ki, vətənpərvərlik həm də vətən naminə çalışmaq, vətəni daima xarici və daxili düşmənlərdən qorumağa hər an hazır olmaq, onun uğurunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, vətənin, xalqın hər bir uğuruna sevinmək və vətəni layiqli vətəndaş kimi təmsil etməkdir. Vətənə layiq olmaq, onu sevmək, torpağa bağlı olmaqdır - vətənpərvərlik! Vətənpərvər o şəxsə deyilir ki, o vətənini daima sevir, ona daim sadiq olur, torpağını, millətini sevir və belə desək bütün mənəvi sərvətlərə malik olur.

Ədəbiyyatımızında vətənpərvərlik hissinin formalamasına təsirindən danışarkən məsələn: Nizami Gəncəvi "İsgəndərnamə"-də müharibə məsələlərinə həsr etdiyi misralarda da özünün fəlsəfi fikirlərini ümumiləşdirmək yolu ilə verdiyi humanizim və beynəlmiləlçilik ideyalarını bir daha təbliğ etmişdir. "İsgəndərnamə"əsərində şairin yüksək vətənpərvərlik hissləri də öz əksini tapmışdır. Bu vətənpərvərlik ideyalarının ən bariz təmsilçisi şairin dərin sevgi duyğuları ilə yaratdığı Bərdə hakimi Nüşabə sürətidir" [19, s. 120-123].

Ədəbiyyat nümayəndələrimizin əsərlərində Azərbaycan milli varlığının tərənnümü ön plana çıxırdı. Vətənpərvərliyin, cumhuriyyətçiliyin alovlu tərənnümçüsü olan Ə.Cavadın "Azərbaycan bayrağına", "Can Azərbaycan", "Azərbaycan" şeirlərini misal göstərə bilərik.

Vətənpərvərlik mövzusu özünü XX əsrdən bu günə kimi qələmə alınan əsərlərdə də göstərir. Poeziyada Nigar Rəfibəyli də öz qələmini vətənpərvərlik mövzusunda sınamışdır:

Vətəndir dünyada hər şeydən əziz,
Vətəni bir ana tanıyırıq biz.....

Mirvarid Dilbazinin, Mədinə Gülgünün şeirlərində də vətənpərvərlik mövzusu - vətən məhəbbəti, ana torpağa bağlılıq, mübariz ruhlu şeirlər, vətən və istiqlal motivləri öz əksini tapmışdır [11, s. 43].

Söz dünyasının korifeyləri – Xaqani, Nizami, Tusi, M.Əvhədi, Ə.Təbrizi, Xətai, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, A.Səhhət, S.Vurğun və b. Vətəni, onun

gözəlliyini vəsf etmiş gəncləri vətən torpağının qədrini bilməyə, göz bəbəyi kimi qorumağa çağırmışlar.

Böyük söz ustalarımızdan olan, Məhəmməd Füzuli özünün estetik idealını bu formada bəyan etmişdir:

Edəməm tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim.

Məhəmməd Füzuli öz dövründə vətən anlayışını insanın doğulduğun yerdən başladığını dilinin, dininin yayıldığı yerlərədək uzandığını deyirdi bu biraz qeyri - müəyyənlik kimi başa düşülsədə amma ayrı - ayrı alimlər və mütəfəkirlər onun çevrəsini konkretləşdirməyə çalışmışlar.

Verilmiş sitatda da Füzulinin timsalında gördüyümüz kimi digər ölkələr və dövlətlərdəki kimi ölkəmizdə də soydaşlarımızın yığcam şəkildə yaşadığı, babalarımızın özlərinə dar və yaxud da geniş mənada vətən adlandırdıqları məkana əlbəttdəki təbii olaraq onların şəxsi və ya toplum baxışları da mövcud olmuşdur. Çağdaş dünyamızda hər bir millətin və dövlətin milli kimlik məsələsi eyni zamanda onun daşıyıcısı milli şüuruda, qoruyucu milli vicdan anlayışıda Azərbaycanda zaman – zaman formalaşan nəsillərin ruhuna, varlığına hopmuşdur. Əcdadlarımızın öz yurduna bu qədər möhkəm bağlılığı, keçmişimizdən gələn bu yaddaş olmasaydı, Qobustan insanlarının daş yuvası vətənləşməz – Tomirislərə, Babəklərə, Xətailərə, Nadirlərə, Cavad xanlara doğma torpaq sayılmazdı.

Elə buna görə də qədim zamanlarda bu günümüzə qədər xalqımızın vətən həqiqətini belə ifadə etmişdi:

Gəzməyə qərib ölkə, Ölməyə Vətən yaxşı! [7, s. 5]

Ona görə ki, “insan hissləri içərisində ən müqəddəsi, bəlkə də irsi, fitri mahiyyət daşıyanı, insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni vətən sevgisidir vətənpərvərlik. Vətən məhəbbəti, torpağa bağlı olan Azərbaycan oğlu və qızı döyüş meydanında yorulmur, odlar, alovlar içərisindən keçərək vətən torpağının gələcəyi, xalqının şərəf və şöhrəti, namus və qeyrəti naminə mübarizə aparır. Vətən torpağı naminə mübarizə xalqımızın mənəvi varlığı və birliyi uğrunda mübarizə, qəhrəmanlıq, mərdlik məktəbidir. Madam ki, insan ömrünün ən böyük zinəti, onu yaşadan qüvvə

vətənpərvərlik hissidir, bu hiss gənclərin təlim-tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır” [23, s. 67].

Göstərdiyimiz sitatdada göründüyü kimi vətənə məhəbbət, vətənə olan sevgi daim şairlərimizin, yazıçılarımızın, mütəffəkirlərimiz öz əsərlərində ön planda olmuşdur.

Doğurdan da vətən bu gün günümüzdə sitatda da deyildiyi kimi hər bir gəncin əsas ruhu, çarpan ürəyi, düşünən ürəyi olmalıdır.

Vətən bağlı başqa bir sitata nəzər yetirək çoxları vətən torpağını insanın doğulub boya-başa çatdığı yer adlandırsa da, Əhməd Zəki belə deyirdi ki: "Vətən o ölkədir ki, orada bir toplum yaşayır və insan özünün ora bağlılığını hiss edir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır ".

Doğurdanda vətən və ya ana vətən insanın doğulduğu yer, dədə-babalarımızın, qohum-əqrəbalarımızın yaşadığı yer, soykökümüzlə bağlı olduğu ölkə deyə bilərik. Vətənə bağlı olmaq hər bir fərddə vətənpərvərliklə səciyyələndirilir.

Bu kimi ədəbiyyat nümunələrimiz gənclərimizin daha da vətənpərvər olmasına çox güclü təsir göstərmişdir.

Qeyd elədiyimiz kimi qədim zamanlardan bu günümüzə kimi Azərbaycanın daima mərd, qorxmaz, cəsur, mübariz oğul və qızlarımız olmuşdur. Doğma vətəni həmişə sevmiş, onun qədrini bilmiş, doğma torpağının bir qarışı belə düşmənə verməmiş, vətən naminə canlarını qurban verməkdən çəkinməmişlər. Belə oğullarımıza biz tarixi keçmişimizdə Cavanşiri, Babəki, Koroğlunu bu günümüzün qəhrəmanlıq tarixini bəzəyən oğullarımıza isə Polad Həşimovu, ilk qadın şəhidimiz Arəstə Baxışovanı, İlqar Mirzəyevi, Mübariz İbrahimovu, Fərid Əhmədovu, Qürbət Tarverdiyevi, Muxtar Qasımlını, Siyavuş Muradovu misal göstərə bilərik. Azərbaycan xalqının igid oğullarından yadelli işğalçılara qarşı mübarizəsi tarixi keçmişimizdirsə, Qarabağ savaşının qəhrəmanları, ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərdir. O şərəfli şəhidlik zirvəsinə ucalan vətən övladları doğma yurdun, elin-obanın sədaqət rəmzləri və məhəbbət simvolu hesab olunurlar. Onlar Vətən torpağı uğrunda vuruşmuş, onun bölünməzliyi uğrunda canlarını qurban vermişlər! [48, s. 14-16].

Mənim fikirimcə vətəni sevmədən, ata-babalarımızın keçdikləri yollara nəzər salmadan, onlar qəhrəmanlıqları haqqında öyrənmədən vətənpərvər kimi yetişmək olmaz. Vətənə məhəbbət insanın qəlbində yaşayan, onu vətənin çiçəklənməsinə təhrik edən ən güclü mənəvi-əxlaqi hissdir. Bu hissi hələ uşaqlıq illərindən aşılamaq başlıca vəzifələrdən biridir.

Uşaqlarmızda, yeniyetmə və gənclərimizdə vətənpərvəlik hissinin formlaşdırılması, yaranması, tərbiyəsi ilkin olaraq ailədən, məktəbəqədər tədris müəssələrindən başlanır, məktəbdə isə formalaşıb, inkişaf edir. Ailə ictimaiyyətin təməl daşı sayılır. Ən qədim zamanlardan sosial institut olan bu «kiçik dövlət»lə bağlı mövzular öz aktuallığı ilə seçilmişdir. Azərbaycanlılar üçün isə ailə dəyərləri, onun mənəvi-əxlaqi keyfiyyətləri həmişə xüsusi önəm daşıyıb. Qeyd elədiyimiz kimi uşaqlarımızın da vətənpərvər kimi böyüməsində ailənin rolu olduqca böyükdür. Vətəndaş tərbiyəsi vətənpərvərlik tərbiyəsi əsasında qurulur.

Prezidentimiz İlham Əliyev demişdir: “Mən istəyirəm ki, övladlarımız vətənpərvər, peşəkar, intellektli, savadlı olsunlar, onların vətənə məhəbbətlə böyüsünlər”.

Uşaqlarda vətənpərvərlik hisslərinin aşılanmasına gəlincə, bağçalar müxtəlif üsullardan istifadə edirlər. Hər gün dövlət himni səsləndirilir, uşaqlar vətənpərvərlik mahnıları və şeirlər öyrənirlər, gənclər dövlət rəmzlərinin təsvirlərini hazırlayırlar. Əgər ailə övladlarında vətənpərvərlik hisslərini aşılamasa, bağça işinin təsiri az olacaqdır. Çünki uşaq bağçadan çox anasından və ya atasından aldığı informasiyanı daha yaxşı qəbul edir.

Orta məktəbdə vətənpərvərlik tərbiyəsi davam edir. Uşaqlar ilk dəfə qələmlə yazmağa və oxumağa başlayanda ilk yazıb oxuduqları sözlər "Ana" və "Vətən" sözləridir ki, hər ikisi də "Ana" sözündən əmələ gəlir.

Abbasqulu Ağa Bakıxanov öz “Təhzibül-əxlaq” əsərində qeyd edir ki, yeni doğulmuş körpələrin beyni cızılmamış daş kimidir. Həmin o daşa nə cızsan yəni körpəlikdən onlarda düzgün tərbiyəni, davranışı, əxlaqı, vətənə olan məhəbbət hissini formalaşdırsan illər keçməsinə baxmayaraq onlar cəmiyyət üçün yararlı şəxsiyyətlər olacaqlar [3, s 17-64].

Bu gün ki günümüzdə də istər məktəbəqədər tərbiyə müəssələrində (körpələr evində, uşaq baxçalarında) istərsə də məktəblərdə (ibtidai siniflərdə, yuxarı sinif şagirdlərində) vətənpərvərlik hisssinin, tərbiyəsinin tərəqqisi inkişaf etdirilməsi bir çox əlamətlərlə bağlıdır. Bunlara biz aşağıdakıları göstərə bilərik:

1. Vətənə hədsiz məhəbbətin olması

2. Vətənin keşiyində ayıq-sayıq durmaq

3. Azərbaycan Silahli Qüvvələrinin döyüş və əmək ənənlərini yaşatmaq və daha da inkişaf etdirmək

4. Azərbaycanı xarici təhlükələrdən qorumaq üçün gənclərimizin hərbi biliklərə, bacarıq və təfəkkürün inkişafına nail olmaq

5. Vətənin taleyi üçün məsuliyyət hissi tərbiyə etmək

6. Azərbaycanın sülhsevər xarici siyasətini və hərbi texnikanın sirlərini öyrənmək

7. Beynəlxalq yarışlarda məsələn mahnı, idman və.s qələbə qazanmaq

8. Müstəqilliyimizi göz bəbəyi kimi qorumaq, yaşatmaq və inkişaf etdirmək.

9. Azərbaycançılıq ideaologiyalarına layiqincə xidmət etmək və.s aiddir.

Bu, ümumtəhsil məktəblərində ən vacib vəzifələrindən biri hesab olunur.

Bu gün məktəblərimizin qarşısında olan ən əsas məqsədlərdən biri də şagirdlərimizin vətənpərvərlik hissini aşılamaq, onlarda vətənimizin fəal müdafiəsində həmişə ayıq-sayıq olmağa, daim öz üzərlərində çalışıb bilik və bacarıqlarını daha da artırmağa, vətənimizin qüdrətini hər vasitə ilə möhkəmləndirməyə yönəltməkdir. Bu məqsədə çatmaq üçün də məktəb və ailə birliyi nəticəsində uşaqlarımızda vətənə, xalqa, millətə, torpağa məhəbbət hissinin aşılanması davamlı şəkildə həyata keçirilməlidir.

Biz burda pedaqoji üsullardan yəni məsələn şagirdlərimizə vətəndaş olduqlarını dərk etdirmək və ya vətəndaş kimi öz üzərilərinə düşən hər bir vəzifəni layiqincə yerinə yetirməyi başa salmaq lazımdır. Bu məsələ birinci olaraq ailədən sonra isə təhsil müəssələrindən çox asılıdır.

Belə qeyd edə bilərəm ki, yuxarı sinif şagirdlərinin əxlaq tərbiyəsi sahəsində məktəbin qarşısında duran ən mühüm və başlıca vəzifələrdən biri vətənpərvərlik

hissinin onlara aşılanmasıdır. Vətənpərvərlik tərbiyəsi həm də mənəviyyat tərbiyəsinin ayrılmaz hissəsələrindən biridir.

Biz şagirdlərimizə vətənimizin şərəfini və azadlığını daim qorumuş və saxlamış Azərbaycan Silahlı Qüvvələrinin tarixi haqqında, onun vətən və torpaq qarşısında xidmətləri barəsində yaxından tanış etmək vacibdir. Biz həm də məktəblərimizdə ona nail olmalıyıq ki, hər bir şagirdimiz əsasəndə X-XI sinif şagirlərimiz doğma ana vətənimizin müdafiə olunması, onu çətinliklərə baxmayaraq, əlindən gələni əsirgəməsin, Azərbaycan ordusunun həyatı, qəhrəmanlığı və s. maraqlandırsın. Buna görə də indiki vəziyyətdə vətənpərvərlik tərbiyə olunması ümumdövlət işinin ən mühüm sahələrindən birinə çevrilmişdir.

Orta məktəblərin təhsil sistemi çağırış yaşı hələ çatmamış yuxarı sinif şagirdlərinə ibtidai hazırlığın keçilməsini, onların fiziki cəhətdən hərtərəfli möhkəmliklərini təmin etmək tələb edir. Bu cəhətdən də indiki vaxtda X-XI sinif şagirdlərinin vətənpərvərlik hissinin formalaşdırılması böyük əhəmiyyət kəsb edir. Əlbəttdə ki bu məqsədə nail olmaq üçün də məktəb və ailə uşaqlara vətənə, xalqa, millətə məhəbbəti sevgini tərbiyə etməli və onlarda vətən qarşısında olan şərəf və borc hisslərini qüvvətləndirməlidir.

Qəhrəmanlarımızın həyatı onların qəhrəmanlıqları haqqında aparılan söhbətlər məktəblilərdə vətənə olan məhəbbət, qəhrəmanlıq, dostluq, sədaqət və başqa xüsusiyyətlərində tərbiyə edilməsinə köməklik edir. Bizlərə həyatda hər şeydən əziz, doğma olan ana vətənimizlə bağlı olan hər bir tapşırıq gənc övladlarımız üçün ən şərəfli və ülvi vəzifələrdən biridir.

Hər birimizə aydındır ki, bu məsələlərdə ümumtəhsil məktəblərinin əsasəndə yuxarı sinif şagirdlərinə (X-XI siniflərində) tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" fənni mühüm rol oynayır. Belə ki, bu fənnin əsas məzmunu ondan ibarətdir ki, şagirdlərə Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların verilməsi, hərbi nizamnamə qaydalarının mənimsədilməsi, onlarda ordu həyatı ilə bağlı təsəvvürlərin yaradılması, tanış olmalarını, hərbi xidmətə başlamamışdan əvvəl fiziki və psixoloji cəhətdən hazır olmalarını nəzərdə tutur.

Bundan əlavə bu fənnin məqsədi şagirdlərdə Azərbaycanın Silahlı Qüvvələrində xidmət etmənin necə müqəddəs borc və şərəfli iş olmasına inamın yaradılması, vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, qorxmazlıq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsidi, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılmasıdır. İstənilən cəmiyyətin gənc əhalisi onun ən mühüm sərvətidir. Hər bir dövlətin siyasəti gənc nəslin rifahını özünün əsas məqsədlərindən biri kimi prioritet təşkil etməlidir. Çünki bugünkü şagird nə qədər savadlı, vətənpərvər, yüksək düşüncəli olsa, dövlətin, millətin gələcəyinə bir o qədər ümid bəslənər. Beləliklə, məktəb gələcəyimizin qurulacağı təməli möhkəmləndirməyə çalışan bir qurumdur, ocaqdır. Müasir şagirdlər öz təhsillərinə kompleks yanaşma tələb edirlər ki, bu da "Təhsil haqqında" qanun, məktəbin daxili normaları, müəllimin öz işinə şəxsi məsuliyyəti nəzərə alınmalıdır. Başqa sözlə desək, bu gün yetişən gənclik təkcə savadlı deyil, həm də vətənpərvər, millətimizin müstəqilliyinə sadiq olmalıdır.

Həmin sahədə aparılan təbliğat işləri, həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji cəhətdən hazırlığının təmin olunmasına, onlarda vətənə, torpağa məhəbbət hissinin artmasına, eləcə də müasirləşən dünyamızda qloballaşmanın geniş vüsət aldığı zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir.

Məktəbdə vətənpərvərlik tərbiyəsi, ayrı-ayrı ümumtəhsil fənlərinin tədrisi prosesində, mövzuların xarakterindən asılı olaraq həyata keçirilir. Qədim dünya tarixi, orta əsrlər tarixi və Azərbaycan tarixi dərsliklərində bütün mövzular öz məzmunu etibarı ilə vətənpərvərlik tərbiyəsi üçün geniş imkan yaradır. Tarix dərslərində şagirdlər dünya tarixi, böyük və qüdrətli xalqımızın həyat, mübarizə və qəhrəmanlıq tarixi ilə tanış olurlar, yenilməz iradə və mətin xarakterə malik tarixi şəxsiyyətlərin nümunəsi onları həyəcanlandırır, onlarda bu tarixi simalara məhəbbət və rəğbət hissi oyadır. Şagirdlər xalqımızın azadlıq uğrunda düşmənlərinə qarşı apardığı mübarizələrdə göstərdiyi misilsiz qəhrəmanlıqlarla tanış olur, igidlərimizlə qurur duyur, onları özlərinə örnək sayırlar. Ölkəmizdə dövlət quruculuğu uğrunda mübarizədə misilsiz mərdlik və rəşadət göstərən qəhrəmanların nümunəsi də müsbət tərbiyəvi əhəmiyyətə malikdir. Tarix fənni şagirdlərdə xarakterin möhkəmlənməsinə səbəbə olur, cəsarət,

igidlik, mərdlik, çətinliklərdən qorxmamaq və başqa bu kimi gözəl iradi keyfiyyətlərin yetişməsinə faydalı təsir göstərir. Şübhəsiz ki, başqa fənlərin vətənpərvərlik tərbiyəsi ilə əlaqəsindən danışmaq mümkündür.

Gördüyümüz kimi həqiqətəndə vətənpərvərliyin məzmunu çox genişdir. Məktəblilərdə vətənpərvərlik haqqında danışarkən şagirdlərimizə izah etmək lazımdır ki, Azərbaycan Silahlı Qüvvələri sözün əsl mənasında xalqın özüdür və gənclərin o cümlədən minlərlə igid, mərd, qorxmaz nümayəndələri öz sıralarında birləşdirən sarsılmaz bir qüvvədir. Ona görə də daim bütün xalq, millət öz ordusu ilə fəxr edir və onu ən yüksək məhəbbət hissi ilə sevir. Xalqın əsgərlərinə olan ülvi məhəbbəti, hörməti və qayğısı isə əsgərlərin ürəyini oxşayır və onları daha da ruhlandırır. Bütün bunlar vətənpərvərliyin kütləvi şəkil almasına xidmət edən bir məsələdir. Bu zamanlar uşaqlar həyata vətənə hazır olduqlarını gözəl nümayiş etdirirlər. Bütün bunların əsasında da sağlamlıq durur.

Xalqın millətin inkişaf etməsi bilikli savadlı olması onun təhsilinin yüksək dərəcədə inkişaf etməsi ilə bağlıdır.

Əxlaq tərbiyəsi adamın özünə, başqalarına, əməyə, vətənə, ictimai quruluşa, ictimai-siyasi, qrup və təşkilatlara və dövlətlərə və.s olan münasibətlərin şüurlu surətdə formalaşmasını nəzərdə tutur. Vətənpərvəlik tərbiyəsi də bu məsələ əsasında inkişaf edir. Bunun üçün də şagirdlərin hərtərəfli və ahəngdar inkişafına diqqət artırılmalı, vətənpərvərlik hissinin aşılamaq üçün zəmin hazırlanmalıdır. Birinci növbədə əlbətdəki uşaqlarda vətəndaşlıq borcunun tərbiyə edilməsi lazımdır.

Vətəndaşlıq borcundan danışarkən biz professor Əjdər Ağayevin “Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi” adlı əsərində yazdığı kimi bu sahənən bağlı olan fikirlərinə görə şagirdlərimizi müstəqilliyimizi 2-ci dəfə bərpa etdiyimiz bir dövrdə çətinlikləri, problemlərlə üzləşməsinə baxmayaraq respublikamızın fəaliyyəti barədəsində müəyyən bilikləri əldə etmiş və xalq tərəfindən yaradılmış maddi və mənəvi sərvətlərin çoxaldılması, müstəqiliyimizin daim qorunması uğrunda vətəndaşlıq borcu və məsuliyyət hissi şagirdlərin tərbiyə olunması işinin mühüm göstəricilərindəndir.

Vətənpərvəliyin tərbiyə olunması üçün biz nəzəri və pedaqoji əsaslarında danışarkən Ə.Ağayevin bu haqqda dediyi fikirinə istinad eliyərək deyə bilərik ki, respublikamızın bütün məktəblərində vətənpərvəlik hissinin formalaşdırılmasının məqsədi şağirdləri nəzəri cəhətdən hazır etmək və onlarla pedaqoji üsullardan istifadə etməkdir.

Vətənpərvəlik tərbiyəsinin elmi-pedaqoji əsaslarına əsasən Azərbaycan ordusu dünya standartının əsas tələblərinə uyğun qurulur. Buna biz əyani sübut olaraq şanlı Azərbaycan əsgərinin 44 gün ərzində 30 illik işğal altında olan torğaqlarımızın geri alınmasını misal göstərə bilərik. İndiki dövrümüzdə yəni müasirləşən dünyada müstəqiliyimizi, vətəni müdafiə etmək zərurətini yaradır.

Bu haqda Azərbaycan xalqının Ümummilli Lider Heydər Əliyevin öz baxışı, orjinal fikri vardır: “Biz indi, Azərbaycanın ikinci dəfə milli müstəqilliyi tarixindən müdafiəçiyik, biz vətəni müdafiə etmək hüququ qazanmışıq”. Vətəni müdafiə etməyə, onun yolunda şəhid olmağa hazırıq! [23, s. 25]

Onu da qeyd edə bilərəm ki, vətən müdafiə olunmasa, qorunmasa düşmənlərin təsirinə məruz qalar, bütünlüklə yeraltı və yerüstü sərvətlərimiz, xoşbəxt həyatımız, elmi-mənəvi dəyərlərimiz yox olar.

## 1.2. Problemin tədris proqramlarda və elmi pedaqoji ədəbiyyatda qoyuluşu

Gənclərimiz arasında vətənpərvərlik hisslərinin formalaşdırılmasında xalq qəhrəmanlarının, eyni zamanda müasir dövürdə bizlər üçün fəxr yerimiz olan Milli Qəhrəmanlarımızın təbliği də mühüm rol oynayır. Buna görə də, hər birimiz hələ kiçik yaşlarımızdan qocalana qədər vətən, millət, torpaq uğrunda döyüşən, vuruşan igidlərimizi, qəhramanlarımızı, vətən torpağı üçün canından keçən şəhidlərimizi tanımağa borcluyuq.

Torpaqlarımız işğal altında olduğu zamanlarda da və işğal azad olduqdan sonrada Azərbaycan ailəsində ata da, ana da, övlad da vətənpərvər olmalıdır. Bizlər hələ ailəmizdə təzəcə dil açan, ağzı söz tutan, ağlı hələ təzə formalaşan övladlarımıza düşmənlərimizin kimlər olduqlarını, şəhidlərimizin niyə vətən üçün vuruşduğunu,

canından keçdiklərini bizlər üçün müqəddəs sayıldığını, vətən torpağının haradan başlayıb, harada qurtardığını və yaxud da vətən torpağının nə üçün bu qədər doğma sayıldığını onlara başa salmalıyıq. Eyni zamanda bu haqqda məlumatları uşaqlarımıza elə çatırdırmalıyıq ki, bu biliklər onların yaddından heç vaxt çıxmasın. Hal hazırdı vaxta vətənpərvərlik bağlı yazılara, əsərlərə, şeirlərə böyük tələbat duyulmaqdadır.

Təhsil ocaqlarımızda bu günki günümüzdə şagirdlərimizin iştirakı ilə vətənpərvərlik ruhunda və ya vətəndaşlıq ruhunda tərbiyəyə istiqamətlənən müxtəlif tədbirlər təşkil olunmalı, təhsil müəssisələrimizdə vətənpərvərliyi aşılayan müxtəlif vəsaitlərlə eyni zamanda metodoloji vəsaitlərlə təchiz olunmalıdır. Əlbəttdəki təşkil olunan bu cür tədbirlər müxtəlif aspektdə ola bilər. Məsələn: dövlətin və cəmiyyətin həyatında cərəyan edən müxtəlif problemlərə bağlı keçirilən konfranslar, seminarlar və s. bu kimi tədbirlərlərdən əlavə, vətənpərvərlik tərbiyəsinin aşılanması mövzusunda şagirdlərmizlə birgə onlarda bu yöndə biliklərinin yoxlanılması ilə bağlı və yaxud da daha da artırılmasına üçün müxtəlif intellektual yarışların, yuxarı sinif şagirdlərimizin arasında olimpiadalar və s. keçirməyi biz bu sıraya daxil edə bilərik. Bundan əlavə olaraq məktəblərimizdə olan kitabxanaya daxil olan kitablar arasında vətənpərvərlik ruhunda olan kitablarla, ədəbiyyatlar, zənginləşdirilməlidir, şagirdlərin onları mütaliə, təhlil etməsi təbliğ olunmalıdır. Təhsil müəssisələrində dövlətçiliklə bağlı və ya milli-mənəvi dəyərləri özündə əks etdirən, təbliğ edən məlumatlamdırıcı lövhələr və digər vasitələrlə mütləq şəkildə olmalıdır. Öz dilimizdə vətənpərvərliklə bağlı ədəbiyyatların yazılması onların yayılması prosesi genişləndirilməlidir.

Apardığımız müşahidələr zamanı bir daha görünür ki indiki dövrümüzdə uşaq kitabxanalarının ən mühüm problemlərdən biri də vətənpərvərliyin tərbiyə oluması ilə bağlı yazılan kitabların azlıq təşkil etməsidir. Hər birimizə aydındır ki, müstəqil ölkəmizin qorunması, onun tərəqqisi uğurunda gələcəyimizin qurucuları hesab olunan bugünkü nəslin əsl bir şəxsiyyət kimi, vətəndaş kimi yetişdirilməsində uşaq kitabxanalarımızın da rolu həddən artıq böyükdür. Xalqımızın tarixini, keçmişini öyrənməyə çalışan şagirdlərimizi vətən torpağının bütövlüyü və toxunulmazlığı, azad və müstəqil olması daha sonra torpaq üçün bir an belə fikirləşmədən canından keçən və qəhrəmancasına həlak olmuş, ən ali məqamlardan biri olan şəhidlik ucalan

şəhidlərmizin həyat və döyüş yollarını əks etdirən kitablarla, yazılarla, müxtəlif ədəbiyyatlarla tanış etmək, öz şərəfli ölümləri ilə hər birimizin qəlbində ölümsüzlük zirvəsinə yüksəlmiş oğullarımızın qısa, amma mənalı həyat yolları haqqında ətraflı şəkildə məlumatların verilməsi bir daha gələcəyin qurucuları hesab olunan şagirdlərimizin vətənpərvərlik tərbiyəsində böyük əhəmiyyət kəsb edir. Vətəni sevdirmədən, onu qorumadan, ata və babalarımızın qəhrəmanlıq nümunələrini övladlarımmıza aşılamadan heç vaxt vətənpərvər bir cəmiyyət yetişdirmək olmaz.

Görkəmli şairimiz Səməd Vurğunun bir kəlamını xatırlayaq: "Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan öz vətəndaşlıq hissini dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar..." [71].

Verdiyimiz sitatdan bir daha aydın oldu ki, vətənə məhəbbətimiz yüksək olamlı, kiçik yaşlardan uşaqlarımızı vətənpərvər böyütməliyik.

Vətənə qarşı olan məhəbbət və sevgi hissi ürəyi vətən üçün döyünən hər bir insanın qəlbində yaşayan, onu vətənin inkişaf etməsinə, çiçəklənməsinə yönəldən mənəvi-əxlaqi hissdir.

Baxçalarımızda, ümumiyyətlə məktəbəqədər təhsil müəssələrində kiçik yaşlı yaşlı uşaqlarda vətənpərvərliyi təbliğ etmək üçün ilk əvvəl onlara vətənin gözəllikləri haqqında onlarda təsəvvür formalaşdırılmalıdır daha sonra vətənin təbiətini hər bir gözəliyini sevməyi, qorumağa öyrətmək lazımdır. Araşdırmalara görə artıq uşaqlarımıza 3 yaşından vətən haqqında şeirlər öyrədilməli, nağıllar oxunmalı, qəhrəmanlarımızı tanıtmalıyıq, onların qəhramanlıqları haqqında məlumatlar verməliyik.

Məktəblərimizdə təhsil alan şagirdlərimizin vətənpərvərlik yönümdə, ümumbəşəri dəyərlər ruhunda tərbiyə edilməsi hər zaman məktəbin qarşısında duran ən vəzifələrindən biri hesab edilmişdir. Əlbəttə, hamıya məlumdur ki, heç kim təkcə nəsihət yolu ilə belə deyək vətənpərvər olmur. Burada eyni zamanda söz və əməl birliyi və ən əasasda fərdi nümunə çox vacib şərtlərdən biridir. Bu gün təhsil ocaqlarımızın hər birində doğma vətənin ayrılmaz parçası sayılan birinci və ikinci Qarabağ müharibəsində döyüşlərdə şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın, erməni

qəsibkarları ilə döyüşlərdə əsgərlərimizin misilsiz qəhramanlıq nümunələri böyüməkdə olan gənclərimiz üçün vətənpərvərlik məktəbidir deyə bilərik. Demək olar ki, məktəblərimizin əksəriyyəti döyüşlərdə qəhramancasına həlak olmuş şəhidlərimizin adlarını daşıyır və bunların hamısı şagirdlərimizin vətənpərvər kimi yetişməsində mühüm rollardan birini oynayır.

Ölkəmizin həm sosial həm də iqtisadi cəhətdən yüksək inkişaf etməsi, ölkə prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətənimizin tərəqqisi, 30 ilə yaxın bir zaman kəsiyində işğal altında olan cənnət Qarabağımızın işğaldan azad olunması istiqamətində göstərdikləri möhtəşəm fəaliyyətləri hər bir Azərbaycan vətəndaşı üçün böyük vətənpərvərlik nümunəsidir.

Ümumtəhsil məktəblərində vətənpərvərliklə yönümündə aparılan sistemli və ardıcıl işlər uşaqlarımızın və gənclərimizin Azərbaycanın Dövlət rəmzlərinə sevgi ruhunda tərbiyə olunmasına çox güclü təkan verir.

Ölkəmizdə hal-hazırda həyata keçirilən gənclər siyasətinin və onlara göstərilən diqqət və qayğının əsasında xalq, millət, ölkə üçün layiqli vətəndaşlar və sağlam nəslillər yetişdirilməsi dayanır. Azərbaycanın Ümummilli Lider Heydər Əliyevin yaratdığı, əsasını qoyduğu Azərbaycanın gənclər siyasəti məhz bu amala, istiqamətə yönəlmişdir. Ulu öndər Heydər Əliyev müstəqil fikirlərə sahib olan vətənpərvər nəslin yetişdirilməsini dəfələrlə vurğulayaraq belə demişdir: “Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var” [12, s. 3].

Ümumiyyətlə belə deyək, vətənpərvərlik tərbiyəsi öz torpağına, yurduna sevgi və məhəbbət hissi, vətəndaş məsuliyyətinin artırılması və istənilən anda vətəninin müdafiəsinə, onu qorumağa hazırlığın formalaşması üçün olduqca çox vacibdir.

2020-ci ilin sentyabrın 27-də Qarabağda torpaqlarımızın azad etmə uğrunda başlanılan əks-hücum əməliyyatları dövründə ön cəbhədə vuruşan əsgərlərimizin vətən sevgisi, arxa cəbhədə vətəndaşlarımızda olan bayraq sevgisi, düşməndən azad olunan vətən torpaqlarında bizlər üçün müqəddəs hesab olunan üçrəngli bayrağımızın

qaldırılması bütün bunlar hamısı əsil vətənpərvərlik nümunəsi kimi hesab edə bilərik və bu qəlbimizi fərəh hissi ilə doldurur [49, s. 213-214].

Bütün bu bir daha onu təsdiqləyir ki, vətənpərvərlik öz xalqını, millətini, vətənini, torpağını və dövlətini sevmək deməkdir.

### 1.3. Fiziki tərbiyə dərslərində vətənpərvəlik tərbiyəsinin aşılanması

Ailədən sonra ikinci tərbiyə ocağı adlandırdığımız məktəblərimizdə şagirdlərin bu yöndə maariflənməsində müəllimlərimizin hətta deyərdim ki birinci vəzifələrindən biridir. Qeyd etdiyim kimi məktəbin, müəllimin vəzifəsi təkcə elmlər haqqında bilik vermək, onların sirlərini açıqlamaq deyil, həm də vətənə layiqli, vətəni, torpağını, bayrağını sevən şəxsiyyət yetişdirməkdir. Bu gün ki, gündə məktəblərimizdə uşaqlara ilkin olaraq vətənpərvərlik hissinin aşılanması üçün müxtəlif üsullardan isifadə olunur onlara vətənpərvərlik mövzusunda mahnılar və şeirlər öyrətmək, qəhramanlarımız haqqında məlumat vermək, dövlət atributlarının şəkillərini çəkdirmək, dövlət rəmzlərimizin haqqında məlumat vermək, şagirdlər arasında vətənpərlik mövzusunda rəsm müsabiqələri keçirmək daha sora vətənpərvərlik yönümdə yarışların təşkil olunması və s. vasitələrlə öyrədilməlidir.

Şagirdlərimizin vətənpərvəlik hissinin formalaşdırılmasında danışan zaman biz məktəblərdə fiziki tərbiyə dərslərinin əhəmiyyətini vacibliyini qeyd eləməsək əlbəttdəki olmaz.

Hamımıza məlum olduğu kimi kimi fiziki tərbiyə - insanınların sağlamlığını möhkəmləndirən onların orqanizmilərinin hər bir üzvünün normal inkişafını təmin edən ictimai fəaliyyətə deyilir.

Oğlanlarımızın və qızlarmızın fiziki cəhətdən inkişaf etmiş, güclü, gümrah, sağlam və vətənpərvər kimi yetişməsində, formalaşmasında tarix boyu yaşlı nəslin nümayəndələrinin marağı olmuşdur. Məsələn qədim zamanlarda həyat yoldaşı seçəndə də hətta bu keyfiyyətlərə xüsusi diqqət yetirilirdi. Bildiyimiz kimi sağlamlıq ən böyük nemət hesab olunur və sağlamlıq insanın təkcə şəxsi firavanlığı deyil həm də başqa cəhətlərdə də əhəmiyyətlidir. Belə ki insanlar nə qədər möhkəm, dözümlü, güclü, çevik

olarsa quruculuq işində doğma yurdunun, vətən torpağının müdafiəsində, onun qorunmasında, bir o qədər yaxından iştirak edər və yaxşı fəaliyyət göstərər.

Məktəblərimizdə vətənpərvərlik hissinin aşılanması məqsədilə məktəblərimizdə keçirilən fiziki tərbiyə dərslərində şagirdlərə müxtəlif yeriş və qaçışlar, kross, uzunluğa tullanma, hündürlüyə tullanma, qumbara atma, sərbəst və düzgün nişan alma öyrədilir. Fiziki cəhətdən sağlam gənclər vətən tamaşasında vətəni uğrunda döyüşmək istəyənlərə örnək olurlar.

Fiziki tərbiyənin ən böyük əhəmiyyəti onan ibarətdir ki, o tərbiyənin digər hissələrini özündə birləşdirərək fərdin hərtərəfli şəkildə və ahəngdar inkişaf etməsinə köməklik göstərər.

Yuxarı sinif şagirdləri (X-XI sinif şagirdlərinin) bu günün şagirdi sabahın isə əsgərləridir. Yuxarı da qeyd etdiyim kimi yuxarı sinif şagirdləri mütləq şəkildə fiziki tərbiyə dərslərində iştirak etməlidirlər çünki onlarda vətənin müdafiəsinə başlamamışdan əvvəl bir neçə keyfiyyətlər formalaşmalıdır. Biz bu keyfiyyətlərə - sürət, qüvvə, dözümlülük, çeviklik, elastiklik və.s misal çəkə bilərik.

Qeyd etdiyimiz bu keyfiyyətlərin şagirdlərimizdə inkişaf etdirilməsində, aşılanmasında, vərdiş halına çevrilməsində məktəblərdə keçirilən fiziki tərbiyə dərslərini və həmçinin fiziki tərbiyə müəllimlərinin üzərinə çox böyük yük düşür.

Fiziki tərbiyə dərslərində ümumiyyətlə həyat üçün ən vacib sayılan bir sıra hərəkətlər öyrədilir. Məsələn biz bunlara yerişi, qaçışı, müvazinət saxlamağı, tullanmaları, qamətin formalaşması üçün hərəkətləri misal göstər bilərik. Həmin hərəkətlərdə istifadə edərək bacarıq və vərdişlərə sahib olmağı şagirdlərin gündəlik həyatları üçün iki cəhətdən əhəmiyyətli sayılır:

Birinci - şagirdlərin gündəlik həyatlarında, gün rejimində qarşılarına çıxan hər bir çətinlikləri aradan qaldırmaqla yanaşı, həm də onlarda bu istiqaməli işdə (yazı yazmağı, məktəbdə faydalı əməklə məşğul olmağı, valideynlərinə işlərində kömək göstərmək, turist yürüşləri, ekskursiyalara getdikləri zaman maneələri asanlıqala dəf etmək, kələ-kötür yerləri gəzmək, dağlara qalxmaq və yaxud enmək və s.) xüsusi müvəffəqiyyətlər də əldə edirlər.

İkinci - isə biz bura fiziki tərbiyə dərsləri zamanı öyrədilən ayrı-ayrı fiziki hərəkətlərdən və mütəhərrik oyunlardan qazanılmış bilik, bacarıq və vərdişlər ümumtəhsil məktəblərində tədris olunan əmək, təbiətşünaslıq və s. fənlərin keyfiyyətinin artırılmasına köməklik edir.

Fiziki tərbiyənin bildiyimiz kimi 4 məzmun xətti vardır. Bunlar:

1. İnformasiya təminatı və nəzəri biliklər;
2. Bacarıq və vərdişlər;
3. Hərəki qabiliyyətlər;
4. Mənəvi-iradi xüsusiyyətlərin formalaşdırılması.

Fiziki tərbiyə dərslərində yuxarı sinif şagirdlərinə vətənpərvərlik tərbiyəsinin aşılanması zamanı məzmun xətlərindən dördüncüsü olan mənəvi-iradi xüsusiyyətlərin formalaşmasınada çox güclü təsir göstərir. Ümumiyyətlə fiziki tərbiyə dərslərində mənəvi-iradi xüsusiyyətlərin formalaşması ancaq hər hansı bir şərait yaradıldığı halda mümkündür. Məsələn çətinliklərin dəf olunması, yorulmaya qarşı durmaq bacarığı və yaxud riski tələb edən hərəkətləri icra etmək və s. Bunlar hamısı iradi keyfiyyətlərin formalaşması üçün bir zəmindir.

Fiziki tərbiyə dərsləri hər bir şagirdin belə desək qadir olduğu hərəki potensialını göstərmək üçün bir vasitədir deyə bilərik. Ümumiyyətlə şagirdlərin hərəki fəaliyyətləri elə təşkil edilməlidir ki, onlar özlərinin fiziki hazırlıqlarını dəyərləndirmələrinə, müqayisə etmələrinə və yaxud onun inkişaf etdirilməsinin zəruriliyini dərk etmələrinə imkan vermiş olsun. Əsasən fiziki tərbiyə dərslərində oyun, yarış metodlarından istifadə olunması zamanı artıq şagird özünün həm üstün həm də zəif cəhətlərini daha tez müəyyənləşdirə bilir. Bu zaman isə hərəki qabiliyyətlərin inkişaf etdirilməsi üçün lazımi olan hərəkətlərin dərs zamanı və ya evdə sistemli, ardıcıl, davamlı şəkildə icrası şagirdlərdə fiziki hazırlıqlarında müsbət dəyişikliklərin olacağına inam hissinin formalaşdırılması gətirib çıxarır.

Fiziki tərbiyə məşğələləri mənəvi-iradi xüsusiyyətlərin formalaşması üçün əlverişli bir mühitdir və mühitin qurulması üçün bir neçə məsələləri həll etmək lazımdır. Bunlara biz aşağıdakıları misal çəkə bilərik:

- Şagirdləri könüllü şəkildə fiziki tərbiyə dərslərinə cəlb etmək və

onlarda məmnunluq hissi yaratmaq;

- Dərsdə sevinc duyğusu yaradan metodları tədbiq etmək;
- İradə tələb olunan hərəkətlərdən dərs zamanı məqsədli şəkildə istifadə edilməsi və hərəkətlərin struktur çətinliyinin tədricən artırılması.

Qeyd etdiyimiz hərəkətləri icra edən zaman təhlükəsizlik qaydalarına tam ciddi şəkildə riayət edilməsi olduqca mühüm vəzifələrdən biridir [29, s. 35-40].

Yuxarı qeyd etdiklərmizdən belə nəticəyə gələ bilərik biz fiziki tərbiyə dərslərində vətənpərvərliklə bağlı şagirdlərimizə biliklərin veriləməsi, VMH idman yarışlarına daxil olan oyunlardan istifadə olunması məsələn: bayrağın alınması, qalanın qorunması və yaxud hər hansı bir fiziki qabiliyyəti inkişaf etdirdiyimiz zamanı komandalı oyunlardan istifadə etmək onlarda mənəvi-iradi xüsusiyyətlərin formalaşmasına gətirib çıxarır. Şagirdlərimizdə mərdlik, qorxmazlıq, igidlik, cəsarətlilik kimi və yaxud vətənpərvərlik, yoldaşlıq, dostluq, kollektivçilik, kimi yüksək insani-əxlaqi keyfiyyətlərin formalaşır.

Məktəblərimizdə keçirilən fiziki tərbiyə dərsləri şəxsiyyətin hərtərəfli şəkildə inkişafına köməklə yanaşı həm də bir sıra xüsusi vəzifələridə yerinə yetirir.

Vəzifələrə misal olaraq biz aşağıdakıları göstərə bilərik:

1. Uşaqlarımızın fiziki cəhətdən tam inkişaf etmiş sağlam və nikbin böyüməsini təmin etmək

2. Məktəblərə zəruri sayılan əsas bacarıq və vərdişləri (bura məsələn: yerimək, qaçmaq, tullanmaq, güləşmək) aşılamaq

3. İnkişaf etməkdə olan gənc nəslin fiziki mədəniyyətə, gigiyena və təbabət aid biliklərə yiyələndirməkdir. Hər bir şagirdin öz orqanizmini normal şəkildə saxlamaq bacarığını formalaşdırmaq

4. Məktəblilərdə təhsilə, əməyə və Vətənin müdafiəsinə daim hazır olmaqla bağlı keyfiyyətləri inkişaf etdirməkdir.

Yuxarıda da qeyd elədiyimiz kimi belə keyfiyyətlər formalaşmasında qüvvə, sürət, dözümlülük, çeviklik ilk sırada dayanır.

Fiziki tərbiyə dərslərinin vətənpərvərliyin məktəblilərdə əsasəndə X-XI sinif şagirdləri arasında formalaşmasına təsiri haqqında qeyd elədiklərimizdən belə nəticəyə

gələ bilərik ki, fiziki cəhətdən sağlam olmaq əlbəttdəki vətəni şüurlu münasibət deməkdir. Eyni zamanda belə vətənpərvər gənclərimizdən respublikamızın şərəfini daim qoruyan idmançılar yetişdirməklə vətənimizin daima bayrağını bütün dünya dövlətləri içərisində ləyaqətlə təmsil etməkdir. Sağlam gənclikdə vətəni hər hər zaman layiqincə qoruyur, ona xidmət edir və hətta lazım gəldiyi anda canından belə keçməyə hazır olur.

Biz qeyd etdiklərimizə misal olaraq Sovet İttifaqının Milli Qəhrəmanı O.Borzenkonun vətənin müdafiəsində bədən tərbiyəsi və idmanın əhəmiyyətini dərk etdiyini və bu biliyi öz həyatında sınadığını qeyd etmək kifayətdir. O belə qeyd edirdi: "Mən döyüş boyu fiziki gücümü saxlamalı idim" deyə izah edir. Əgər gənc yaşlarımda bədənimi və iradəmi məşq etdirməsəydim, məni ən azı 20 dəfə öldürə bilərdilər və mən bunu şişirtdiyimi düşünmürəm. Bununla belə, mən davamlı olaraq döyüşdə düşməndən daha güclü və çevik idim. Mən qollarımı və paltarlarımı soyuq suya batıraraq sahilə 2 kilometr üzə bilmişdim.

Bütün bunların əsas səbəbi məktəbimizin bədən tərbiyəsi müəlliminin bizdə fiziki tərbiyəyə böyük marağ oyata bilməsi idi. Dnepr sahilində yaşayan, lakin heç vaxt üzməyi öyrənməyən Kiyevdən olan gənc, əzələli bir əsgər məni cəlb etmişdi. Bu əsgər Dnepr sahillərində yaşasa da Mübarizə vaxtı çaya düşmüş və boğulmağa başlamışdır. “Belə əsgərlər orduda üçün qiymətli əsgər sayılmır”.

Verdiyimiz sitatdan belə nəticəyə gələ bilərik ki, müntəzəm şəkildə fiziki tərbiyə ilə məşğul olmaq bizim həyatımızın hər bir anında bizə gərək olur.

### 1.4. Dərsdənkənar tədbirlər vasitəsi ilə şagirdlərin vətənpərvərlik tərbiyəsinin imkanları

Şagirdlərin elmi və yaradıcı təfəkkürünün inkişafı çətin və vaxt aparan prosesdir və onu təkcə təlim prosesi ilə məhdudlaşdırmaq olmaz. Keçmiş təcrübəyə əsasən, dərsdənkənar tədbirlər şagirdlərin dərsə həvəsini artırmaqla yanaşı, onların şifahi ünsiyyət vərdişlərinə də əhəmiyyətli təsir göstərir. Düzdür, dərsdənkənar tədbirlər formal məktəb kurikulumuna daxil deyil, lakin onlar könüllülük ideyası üzərində

qurulur və sinifdə görülən işin bir növ davamı kimi xidmət edir. Bu onu göstərir ki, dərsdənkənar fəaliyyətlər tədris prosesindən məzmununa görə deyil, yalnız forma və mahiyyətinə görə fərqlənir. Nəticə etibarı ilə müəllimlər bu işə xeyli vaxt və səy sərf etməlidir.

Dərsdənkənar məşğələlər əvvəlcədən hazırlanmalı və təlimatçıların iş qrafiklərində müntəzəm olaraq planlaşdırılmalıdır.

Məktəblərdə dərsdənkənar fəaliyyətlər iki kateqoriyaya bölünə bilən müxtəlif üsullarla təşkil olunur: kütləvi tədbirlər və fərdi iş.

Vətənpərvərlik tərbiyəsinidə təkcə təlim prosesində aparılan işlərlə məhdudlaşdırmaq olmaz. Bu işdə dərsdənkənar tərbiyə işlərinin müxtəlif formalarından, yol və vasitələrindən istifadə etmək lazımdır.

Dərsdənkənar işin əhəmiyyəti çox böyükdür. O uşaqların hərəki fəallığının artırılmasına və onların sağlamlığına yardım edir, onların fiziki kamilliyi, fərdi maraqlarını təmin edir və idmanla məşğul olmağa maraq fomalaşdırır, şagirdlərin sosial fəallığını inkişaf etdirir.

Yuxarıda qeyd edilənlər belə deməyə əsas verir ki, məktəblərdə keçirilən dərsdənkənar məşğələlər şagirdlərin o cümlədən yuxarı sinif şagirdlərin mənəvi-əxlaqi və fiziki keyfiyyətlərin inkişafına qüvvətli təsir göstərir. Onların orqanizminin fiziki inkişafında, sinir sisteminin möhkəmlənməsində, ağ ciyərlərin hava tutumunda, maddələr mübadiləsinin yüksəlməsində, əzələ kütləsinin artmasında çox böyük əhəmiyyət daşıyır.

Azərbaycan Silahlı Qüvvələrinin şanlı qəhrəmanlıq tarixi ilə tanışlıq gənclər üçün zəruri olan cəsurluq və şücaət, mərdlik, xalqa və vətənə sədaqət kimi keyfiyyətlər tərbiyə edir. Məktəbdə vətənpərvərlik tərbiyəsinin bütün sistemi gənclərin qəlbində yaşlı nəslin keçmiş ənənələrinə yüksək inam və sədaqət hissini alovlandırmalı, hər bir oğlan və qız dərindən hiss etməlidir ki, o, öz babalarının, atalarının və böyük qardaşlarının dönməz davamçısıdır. Məktəbdə vətənpərvərlik tərbiyəsinin əsas məzmununu məhz bu prinsip təşkil edir. Tərbiyə işinin bu mühüm sahəsi məktəblilərin əsgərlə hərbi hissələrdə dostluq əlaqələrindən, onlarla görüşlərdən, mövsümi sərgilərin

təşkilindən qaynaqlanır. Hazırda vətənpərvərlik tərbiyəsi bütün pedaqoji kollektivlərin, ictimai təşkilatların müntəzəm məşğul olduğu bir sahəyə çevrilib.

Nümunəvi məktəblərdə vətənpərvərlik tərbiyəsinin metodik cəhətdən düzgün təşkili qonşu məktəblər üçün nümunə ola bilər. Xüsusilə də, nümunəvi məktəblərdə yaradılan "Döyüş şöhrəti" muzeyinin işi, keçirilən idman oyunları, milli qəhrəmanlarla təşkil edilən görüşlər vətənpərvərlik tərbiyəsini xeyli qüvvətləndirib. Belə muzeyin yaradılması məktəbdə vətənpərvərlik tərbiyəsi üzrə dərsdənkənar işlərin ən yaxşı, gözəl nümunədir. Qarabağ müharibəsində həlak olmuş döyüşçülərin həyatının öyrənilməsi sahəsindəki təşəbbüs də təqdirəlayiq haldır. Bütün bunlar məktəblilərdə vətən sevgisini artırır.

Biz yuxarı sinif şagirdlərinin dərsdənkənar tədbirlərdə vətənpərvəlik hisslərinin formalaşdırılmasında əlbətdəki hərbi-idman yarışlarının (VMH) roluda yüksəkdir. Belə ki, hərbi idmanın oyunlarının tərbiyəvi məqsəd daşıdığı üçün uşaqlar daha çox maraqlanır və həvəslə məşğul olurlar. Araşdırmanın nəticələrinə görə, şagirdlərin hərbi-idmana marağının əsas səbəbləri bunlardır. Birincisi qəhrəmanlıq arzularını və istəklərini yerinə yetirmək, fərdi keyfiyyətlərini nümayiş etdirmək, kollektivdə müəyyən mövqe tutmaq. İkincisi hərbi vərdişlərə, eləcə də bir sıra mənəvi və iradi keyfiyyətləri, habelə gələcək üçün zəruri olan bacarıqları inkişaf etdirmək istəyinin olması və vətənin müdafiəsində fəal iştirak etməkdir.

Hərbi-idman oyunlarının özünəxas 6 xüsusiyyəti vardır. Bunlar:

✓ qəhrəmanlıq və döyüş elementlərinin olması. Burada uşaqlar özlərini döyüş meydanını təsəvvür edir özlərini döyüşçü kimi hiss edir.

✓ oyunda hərbi bilik və bacarıqların nümayiş etdirərək səra hərəkətləri, atıcı silahlarla davranış qaydaları, dəqiq atəş, qumbara atma, yerdə sürünmə, maskalanma, gizli və cəld hərəkətlər, müxtəlif maneələri dəf etmək və s.

✓ oyun prosesində bir sıra məcazi siqnallardan, silah modellərindən, təlim silahlarından, qaz maskalarından, imitasiya avadanlığından (boş patronlar, tüstü bombaları, qarmaqlar və s.), həmçinin çadırlardan, kamuflyajdan, sanitar çantalardan və ilkin tibbi yardımı verilməsi üçün avadanlıqdan istifadə olunma qabiliyyəti;

✓ hərbi idman oyununda komandir komandanın və ya ayrı-ayrı uşaqların fəaliyyətinə rəhbərlik edir, tabeliyində olanlara əmrlər verir, onlara vəzifələr verir, onların icrasını planlaşdırır və təşkil edir, planın icrasına nəzarət edir. Hər bir iştirakçıdan müəyyən edilmiş ardıcıllığa riayət etmək tələb olunur.

✓ hərbi idman oyununda ən vacib xüsusiyyətlərdən biri hərbi hazırlığın və döyüş əməliyyatlarının xüsusiyyətlərini əks etdirən çətin vəziyyətlərdə qarşıya qoyulan məqsədə nail olmaq bacarığıdır. Məktəblilər oyunda öz fəaliyyətlərini həyata keçirərkən, ehtimal olunan yolu və nəticəni zehni olaraq proqnozlaşdırır, hərəkətlərini və nəticələrini müqayisə edirlər.

✓ gəzmək, qaçmaq, tullamaq, müşahidə etmək, ilk tibbi yardım göstərmək, sıra hərəkətləri və digər fəaliyyətlər oyunda yerinə yetirilə biləcək bir çox hərəkətlər arasındadır.

Şagirdlər zamanla hərbi-idman tədbirlərində iştirak etməklə əldə edilən təcrübə onlara gələcək fəaliyyətlərində faydalı olur və müxtəlif bacarıqlar formalaşdırmağa kömək edir. Hərbi-idman oyunlarının sağlamlaşdırıcı xarakter daşımasından söhbət gedəndə ən vacibi odur ki, məktəblilərin orqanizminin düzgün formalaşması və möhkəmlənməsi, eləcə də bütün fizioloji proseslərin optimal inkişafı və uşaqların sağlamlığı ilk növbədə dayanır. Müxtəlif maneələri dəf etmək və müxtəlif zehni tapşırıqlar şagirdləri çox yormamalıdır. Oynaması çox çətin olan oyunlar qadağan edilməlidir.

Hərbi idman tədbirlərinin keçirilməsinə yanaşmanın işlənib hazırlanması zamanı uşaqların yaşı, cinsi, sağlamlıq vəziyyəti, fiziki və əqli imkanları nəzərə alınmalıdır.

Uşaqların hərbi idman tədbirlərində iştirakı böyük dözüm tələb edir. Sürətlə qaçmaq, əl qumbarası atmaq, tullanmaq və dırmaşmaq, zəhərli zonalardan sürünərək müxtəlif maneələri dəf etmək, yaralıları tapıb xilas etmək və döyüş meydanından təxliyə etmək, çadır qurmaq və digər oyunçular kimi maskalanmaq kimi mərhələləri tamamlamaq lazımdır. Bədən tərbiyəsi müəllimləri və hərbi komandirlər bu tələbi yerinə yetirmək üçün bütün tədris ili ərzində gənclərə təlim keçməlidirlər.

Hərbi idman oyunları şagirdlərimizə mənəvi dəyərlərin inkişafına da kömək edir və şagirdlərdə əxlaqi keyfiyyətlərin yaratmasını qarşısına əsas məqsəd kimi qoymuşdur. Oyunlar öz quruluşuna və davranışına görə eyni zamanda gənclərin mənəvi təxəyyülünə, iradəsinə, hisslərinə təsir etmək qabiliyyətinə malikdir. Hərbi-idman oyunlarının əxlaqa bu formad təsir göstərməsisıra psixoloji vəziyyətlə bağlıdır. Ümumiyyətlə, bu oyunlar əxlaqi məzmun daşıyır məsələn:

1. Vətəni müdafiə etmək, məqsədinə çatmaq, dostluq etmək, çətinliklərə qarşı durmaq bacarığı və s. Oyunda iştirak uşaqlarda bu xüsusiyyətlərin inkişafına köməklik edir. Bununla da, şagirdlər müxtəlif çatışmamazlıqları aradan qaldırırlar. Əxlaqi xüsusiyyətlər uşağın beynində təkrar olaraq bu şəkildə möhkəmlənir ki, bu da şəxsiyyətin inkişafına təsir edir və şüurun inkişafına kömək edir.

2. Oyun, şagirdlərin gərgin zehni fəaliyyəti həyata keçirilir. Burada: tapşırığı yerinə yetirmək üçün şagird bütün mühakimə qabiliyyətini, hazırcavablığını, diqqətini və iradəsini işə salan. Belə bir fəaliyyətin gedişində oyunun əxlaqi məzmunu şagirdlərin şəxsiyyətinin inkişafına mühüm təsir göstərmək üçün zəmin yaradır. Araşdırmalara görə, hər bir uşağ hiss və istəklərini oyandırmaq, bu istəyi reallaşdırmağa çalışmaq və qarşıya qoyulan məqsədə çatmaq üçün öz təxəyyüllərindən istifadə edir. O, digər komanda yoldaşları ilə ünsiyyət qurur və onlara sosial bacarıqların inkişafında köməklik göstərir.

3. Hər oyunda şagirdi oyun qaydalarına əməl etməyə məcbur edən tələblər olur. Oyunda qaydalar və ciddi nizam-intizamın gücləndirilir ki, bu da uşağın əxlaq normalarının inkişafına, eləcə də iradəsinin təşəkkül tapmasına kömək edir.

4. Oyunlar böyüklərin davranışını əyləncəli və cəlbedici şəkildə təqlid etmək üçün bir neçə imkanları vardır. Bu baxımdan hərbi idman oyunlarının əhatə dairəsi daha genişdir. Müəllimlər, dəstə başçıları, hərbi qulluqçular bu oyunlarda yaşlıların nümayəndələri kimi iştirak edir, onlara qatılan gənclərin fəaliyyətinə rəhbərlik edirlər. Oyunlar zamanı uşaqlar yaşlı nəslin davranışını, o cümlədən komandaya olan münasibətini, nizam-intizamını, xeyirxahlığını müşahidə edir, təqlid edir və bu faydalı hərəkətləri örnək götürürlər.

5. Oyunlarının gənclərin əxlaqına və şüuruna təsirinin ən mühüm psixoloji

cəhətlərindən biridə odur ki, bu oyunların müsbət və emosional formada təşkil olunması ilə bağlıdır. Oyunların müsbət reaksiya yaradan hərəkətlərlə zəngin olması, dəfələrlə təkrar edilməsi, oyundan-oyuna hərəkətlərin dəyişilməsi oyunların uşaqlarda tərbiyəedici təsirinin daha da qüvvətləndirilməsinə səbəb olur.

Hərbi idman oyunları uşaqların estetik tərbiyəsinin formalaşmasınada də kömək edir. Silahlı qüvvələrin estetikası həmişə gənclərin gündəlik həyatının bir hissəsi olub. Müəllif deyir: “Hərbi həyatda, xüsusən də Azərbaycan Ordusunda insanı valeh edən heyrətamiz nümunələr vardır. Bunlara məsələn hərbçilərin düzülüşü, qaməti, hərbi-vətənpərvərlik mahnıları, hərbi geyim formasının elementləri, silah-sursatın əldə saxlanılması, hərbi andiçmə mərasimi, dövlət və döyüş bayraqlarının qorumaq, mühafizə etmək qeyd edə bilərik.

Vətənpərvəlik tərbiyəsi yuxarı sinif şagirdlərindən təşkil olunmuş “Cəsurlar” və “ Şahin” idman oyunları son illər yaxşı iş kimi qeyd edilə bilər. “Cəsurlar” idman oyunlarına 5-8-ci sinif şagirdləri, “Şahin” idman oyunlarına 9-11-ci sinif şagirdləri cəlb edilirlər.

“Şahin” hərbi-idman oyununlarının keçirilməsinin əsas məqsədi məktəblilərin ordu sıralarına, hərbi xidmətə hazırlanmasına kömək göstərməkdən ibarətdir.




Şək.1.2. Hərbi-idman oyunlarının mərhələləri

“Şahin” hərbi-idman oyununlarının təşkili üçün yerli gənclər və idman idarələri və final yarışlarında isə Gənclər və İdman Nazirliyi tərəfindən təşkilat komitəsi yaradılır.

“Şahin” hərbi-idman oyununlarının 8 mərhələsi var. Heyət turnir boyu dəqiq müəyyən edilmiş formada yarışır. Hər bir mərhələ münsiflər heyəti tərəfindən hər mərhələ üçün 5 (beş) ballıq sistemlə qiymətləndirilir.

Nəhayət, oyun zamanı itirilən və qazanılan xallar hesablananan sonra, komandanın hər bir fərdi mərhələdəki ümumi balı 8-ə (mərhələlərin sayı) bölünür və nəticədə onluq dəqiqliyi ilə hesablanır. Yarışın 8 növünün ballar hesablananan sonra əgər nəticələr eyni olarsa onda “Tüfəngdən hədəfə atəş açmaq” mərhələsində daha çox bal toplamış komandaya, bundan əlavə “Sıra hazırlığı” mərhələsində yüksək nəticə göstərmiş komandaya daha çox üstünlük verirlər.

”Şahin” hərbi idman oyunlarının mərhələləri

1. Sıra hazırlığı
2. Sıra addımı ilə hərəkət (təntənəli marşla).
3. Mahnı ilə hərəkət.
4. Kapitanın məruzəsi, cərgə nizamı (“Düzlən”, “Fərəqət”, “Azad”) və salamlaşma.
5. Bir cərgədən iki cərgəyə və əksinə düzülmə.
6. Yerində və hərəkət zamanı dönmələr (sağa, sola, geriyə).
7. Komandirin əmri ilə dağılma, bir və iki cərgə düzülmə.

Komanda üzvlərinin hərəkətləri hakimlər heyəti tərəfindən 10 (on) ballıq sistem üzrə qiymətləndirilir.

I. Darağa patron doldurulması və boşaldılması

Bu mərhələdə X sinif şagirdi iştirak edir və əsasən hər komandadan 1 nəfər oğlan olmaqla. İlk olaraq hakim əmr verdikdən sonra “Darağa patron doldurulması” normativini yerinə yetirir. Bu zaman hakim göstərilən normativin vaxtını qeyd edir və növbəti əmri verir. İkinci isə məktəbli “Daraqdan patronun boşaldılması” normativini yerinə yetirir.

II. Avtomatın sökülməsi və yığılması.

Yarışın 3-cü mərhələsində hər iki komandadan X sinif şagirdləri olan 2 nəfər oğlan yarışır. Onlardan hər ikisi əlbəttdəki ayrı-ayrılıqda verilmiş normativə uyğun olaraq müəyyən olunmuş vaxt ərzində avtomatı ilk olaraq sökürlər, daha sonra isə

yığırlar. Avtomatın sökmək və yığmaq hakimin komandası ilə həyata keçirilir və hər iki mərhələdə müəyyən fasilə verilir. Bu mərhələdə qiymətləndirmə 5 ballıq sistemlə aparılır.

III. Tüfəngdən hədəfə atəş açmaq.

Oyunun bu mərhələsində pnevmatik silah istifadə olunur. X sinif şagirdləri olan hər komandadan iki iştirakçı (bir oğlan və bir qız) uzanaraq onlardan 10 metr məsafədə qoyulmuş rəqəmli hədəfə atəş açırlar. Hər bir iştirakçıya cəmi beş güllə xalı verilir. Standarta uyğun olaraq, qalibi müəyyən etmək üçün bütün iştirakçılar tərəfindən toplanan xalların ümumi sayı 5 (beş) ballıq sistemlə qiymətləndirilir.

IV. Fiziki hazırlıq

Hər heyətdən iki nəfər 1 oğlan və 1 qız iştirak ibarətdir. Yarış keçirildiyi iki məntəqə olur. Qiymətləndirmə metodu 5 (beş) ballıq sistemə əsaslanır. İki balın hər birində alınan qiymətləri toplamaqla və ikiyə bölməklə (balların sayı) "Bədən tərbiyəsi" mərhələsində toplanmış orta xal alınır, sonra yekun nəticəni müəyyən etmək üçün komandanın ümumi balına əlavə edilir.

V. Maneələrin dəf olunması

Bu yarış isə 200 metr məsafədə həyata keçirilir. Yarışda əsasən IX sinifdən 5 oğlan və 2 qız ümumilikdə 7 nəfər iştirak edir. İştirakçıların hər birinin üstündə əleyhqaz olur. Bu mərhələdə 5 maneədən istifadə edirlər. Daha tez maneələri dəf edən belə desək komanda qalib elan hesab olunur. İştirakçılar 5 maneənin hər birini keçdikdən sonra, qaçaraq yenidən "START" nöqtəsinə gəlirlər. Saniyəölçən axırıncı iştirakçının finişə çatdığı anda saxlanılır. Maneələri düzgün keçilmədikdə isə iştirakçıların hər birinə cərimə vaxtı verilir buda sonda komandanın göstərdiyi nəticəyə əlavə olunur.

VI. Mülki müdafiə hazırlığı

Komandalar öz öhdəliklərini tam dərk edərək yarışda tam tərkibdə iştirak edirlər (14 nəfər – 10 oğlan, 4 qız). Komandanın hər bir üzvü əleyhqaz qaz maskası daşımalı və hər komandanın 4 nəfər üzvündə sanitar çantası olmalıdır. Müxtəlif növlər üzrə normalara uyğun toplanan ballar cəmi 3-ə (bölünmüş ədədə) bölündükdə "Mülki müdafiə hazırlığı"nın rəhbərliyi komandanın bu idarə olunması üzrə orta balı

hesablayır, sonra isə ümumi bal toplanır və nəticəyə əlavə olunur. Turnirin bu mərhələsi üç mərhələyə bölünür.

- əleyhqazın geyinilməsi. Burada komandanın demək olar ki, bütüb üzvləri iştirak edir.
- "yaralının" tapılıb, ona dərhal tez bir zamanda əleyhqazın geyindirmək daha sonra "Zəhərli zona" dan çıxarmaq və "tibb məntəqəsi" nə çatdırmaq. Komandadan 6 nəfər (XI sinif – 4 oğlan, 2 qız) iştirak edir.
- sanitarların bir-birilə yarışı. Bu mərhələdə isə hər komandadan 4 qız iştirak edir. Bu məqsədlə də sanitar postu və anitar məntəqəsi yaradılır.

Şagirdlərin vətənpərvərlik tərbiyəsində dərsdəndənkənar işlərin forma və üsulları müxtəlif və rəngarəng olur. Məsələn, Azərbaycan ordusunun yaradılması günü, 9 may Qələbə Günü, 8 noyabr Zəfər bayramı və s. tarixi günlərə hazırlıq görülməsi və təntənəli surətdə qeyd edilməsi, hərbi hissələrə, döyüş yerlərinə, qəhrəmanların abidələrinə ekskursiyların təşkili, abidələrin önündə qəhrəmanlar haqqında söhbətlər aparılması, abidənin üzərinə əklillər qoyulması, Qarabağ müharibəsinin veteranları və Azərbaycan ordusunun döyüşçüləri ilə görüşlərin keçirilməsi gənc nəslin milli şüurunun inkişafına öz təsirini göstərir. Bu, gənc nəslin yaddaşında dərin iz buraxır.

Vətənpərvərlik mövzularında aparılan söhbətlər, ədəbi-bədii gecələr, müzakirələr keçirmək, şəkilli albomlar, fotosərgilər, fotoalbomlar təşkil etmək və s. gənc nəslin milli şüurunun təşəkkül tapmasına təsir göstərən vasitələrdir. Məktəblərdə bu vasitələrin hər birindən müntəzəm istifadə olunur ki, bunlar da şagirdlərdə vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsinə səbəb olur.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi üzrə məktəbdə həyata keçirilən dərsdəndənkənar tədbirlərin necə təsir bağışladığını yoxlamaq üçün inşa yazı işlərinin hazırlanması, bu mövzuda müzakirələrin keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Şagirdlər (X-XI sinif şagirdləri) müəllim tərəfindən onlara ünvanlanan sualları cavablandıraraq vətənpərvərliklə bağlı biliklərini nümayiş etdirirlər. Onlara aşağıdakı suallara yazılı cavab verməyi tapşırmaq olar:

1. Sən vətənpərvərliyi necə başa düşürsən?

2. Sənin ən sevdiyin döyüşçü-qəhrəman kimdir?

3. Əgər sən əsgər libası geysən, özünü hansı qəhrəmana bənzədərdin?

4. Azərbaycan ordusundan bəhs edən hansı əsərləri oxumusan?

5. Hansı qəhrəmanların həyatı səni daha çox maraqlandırır?

6. Vətənpərvərliyə aid hansı atalar sözləri və bayatıları bilirsən?

Şagirdlərdə vətənpərvərlik hisslərinin tərbiyəsi üçün dərsdənkənar oxu da gözəl vasitədir. Bu, şagirdlərin vətənpərvərlik və qəhrəmanlıq ruhunda tərbiyə edilməsinə çox kömək edir.

Həm dərsdənkənar tədbirlər, həm də fənlərin tədrisi prosesində şagirdləri vətənpərvərlik və qəhrəmanlıq nümunələri əsasında tərbiyə edən müəllimlər şagirdlərə izah edirlər ki, bütün mübarizə və qəhrəmanlıq gələcək həyatın gözəlliyi, xoşbəxt yaşamaq və vətənin azadlığı üçündür. Şagirdlər bilməlidirlər ki, Azərbaycan tarixən qəhrəmanlar yurdudur, bu yurdun gələcəyi bizim xoşbəxt gənclərimizdir.

Məktəbin qarşısında bir tərəfdən, mübarizələrlə dolu qəhrəmanlıq yolu keçmiş Azərbaycan Silahlı Qüvvələrinin şanlı tarixi, Qarabağ müharibəsində göstərilən qəhrəmanlıqları lazımi səviyyədə işıqlandıraraq gənclərdə Azərbaycan ordusuna məhəbbət tərbiyə etmək vəzifəsi durur. Bu, öz ifadəsini gənclərə vətənimizin müdafiəsi üçün lazım olan bir sıra hərbi bacarıq və vərdişləri aşılamaq, onları vətənin müdafiəsinə hazırlamaq vəzifəsində tapır.

Bu gün məktəblərimizdə gənc nəslin vətənpərvərlik tərbiyəsi üçün bir sıra tədbirlər həyata keçirilir: şagirdlər döyüşçülərlə, onların həyatı və hərbi hazırlıqları ilə tanış olur, birlikdə hərbi mövzuda kinofilmlərə, teatr tamaşalarına baxır, sərgi salonlarında olur, ədəbi-bədii əsərlərin və hərbi sahə ilə bağlı məsələlərin müzakirəsində iştirak edirlər. Eləcə də yuxarı siniflərdə təhsil alan məktəblilər çağırışqabağı ilk hərbi hazırlıq keçirlər. Bu işdə şagirdlərə yaşlı nəslin keçdiyi həyat yolu da nümunədir.

# II FƏSİL

# PEDAQOJİ EKSPERİMENTİN TƏŞKİLİ, KEÇİRİLMƏSİ, NƏTİCƏLƏRİ

## 2.1. Pedaqoji eksperimentin təşkili

Tədqiqatımızın fərziyyəsinin doğruluğunu sübut etmək üçün biz Bakı şəhəri Nizami rayonu 70 N-li məktəb-liseyində pedaqoji eksperiment aparmışıq. Apardığımız pedaqoji eksperiment həmin məktəbin yuxarı sinif şagirdləri arasında (X-XI siniflər) aparılmışdır.

Biz tədqiqat işimizə $X^a$, $X^b$, $XI^a$, $XI^b$ sinifləri cəlb etmişdik. Bunlardan $X^a$, $XI^a$ eksperment, $X^b$, $XI^b$ isə nəzarət siniflər olaraq seçilmişdir. Apardığımız tədqiqat işi 2 mərhələdən ibarət olmuşdur. I mərhələ 15 oktyabrdan – 15 dekabr 2021-ci ilə qədər, II mərhələ isə 17 yanvardan – 17 mart 2022-ci ilə qədər dövrü əhatə etmişdir.

Birinci mərhələdə (müəyyənedici) fiziki tərbiyə dərslərində müşahidələr və fiziki tərbiyə müəllimləri ilə vətənpərvəliklə bağlı söhbətlər aparılmışdır. Onların bu sahədə fikirləri və problemlə bağlı vəziyyət öyrənilmişdir. Yuxarı sinif şagirdlərinə bu mövzuda anket sualları təqdim etməmişdən qabaq uşaqların ümumi bilik səviyyəsi öyrənilmiş, fiziki tərbiyə dərslərinin tədris planında vətənpərvərliklə bağlı məlumatların olub-olmaması araşdırılmış və təhlillər aparılmışdır. Birinci mərhələdə eyni zamanda biz şagirdlərin ümumi bilik səviyyəsini müəyyən etmək üçün uşaqlarnan test və açıq suallar formasında sorğusu aparmışıq.

Anket sualları:

1. Sizin fikrinizcə vətənpərvər kimdir?
2. Vətəni nə üçün sevmək lazımdır?
3. Vətəndaşlıq borcu nədir?
4. Vətən uğrunda canlarından keçən şəhidlərimizi necə yad edirsiniz?
5. Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarından, Milli qəhrəmanlarımızdan kimlərin adını çəkə bilərsiniz?
6. Son vaxtlar vətənpərvərlik mövzusunda hansı əsərləri oxumusunuz?

7. Sənin ən sevdiyin qəhrəmanlar kimlərdir?

8. Vətənpərvərlik mövzusunda yazan yazıçılardan, şairlərdən kimləri tanıyırsınız?

9. Hansı qəhrəmanların həyatı səni daha çox maraqlandırıb?

10. Ölkəmizlə bağlı olan tarixi günlərdən hansılarını bilirsiniz?

11. Öz yaşıdlarınızın vətənpərvərlik hisslərini necə qiymətləndirirsiz?

A) ürəkaçan deyil

B) ürəkaçandır

C) zaman keçdikcə daha yaxşı olacaq

D) hazırda bu hiss olduqca güclüdür

12. Vətənpərvərlik hissi necə formalaşmalıdır?

A) ailədə

B) uşaq baxçasında, orta məktəbdə

C) ali təhsil ocaqlarında

D) ictimai təsisatlar vasitəsilə

13. Gənclərdə vətənpərvərlik hisslərinin artırılması üçün nə edilməlidir?

A) heç bir şey

B) o daxildə formalaşmalıdır

C) orta məktəblərdə təbliğ edilməlidir

D) bu iş televiziya və radiolarda güclənməlidir

14. Sizcə uşaq və yeniyetmələrdə vətənpərvərliyin inkişafı üçün nə etmək lazımdır?

A) onlar vətənə ürəkdən bağlanmalı, doğma yurdu ürəkdən sevməlidirlər

B) daxili təşəbbüs göstərilməlidir

C) birləşməlidirlər

D) dərnək və klublar yaratmalıdırlar

Anket sorğusuna X-XI siniflərdə təhsil alan cəmi 75 nəfər şagird cəlb edilmişdir. Şagirdlərlə apardığımız ilkin anket sorğusundan əldə etdiyimiz cavablardan belə məlum oldu ki, şagirdlərin vətənpərvərliklə bağlı olan bilikləri, düşüncələri onların bu istiqamətdə inkişaf etdirilməsi metodikası haqqında bilikləri bəsitdir.

Eksperimental və nəzarət siniflərində ilkin apardığımız anket sorğularından sonra fiziki tərbiyə müəllimləri şagirdlərin verdikləri cavablara uyğun olaraq onları 1-10 bal sistemində qiymətləndirdilər. Şagirdlərin açıq suallara verdikləri cavablara uyğun verilən balları aşağıdakı cədvəllərdə görmək olar (Cədvəl 2.1., 2.2., 2.3., 2.4.).

Cədvəl 2.1.

$X^b$ sinif şagirdlərinin ilkin anket sorğusunun qiymətləri

| N | S.A.A | Şagirdlərin balları |
|---|---|---|
| 1 | H-ov A.N | 3 |
| 2 | S-ov D.L | 4 |
| 3 | K-ov Q.A | 9 |
| 4 | R-va Y.T | 2 |
| 5 | V-ov N.N | 6 |
| 6 | M-ov G.A | 5 |
| 7 | Q-va A.U | 7 |
| 8 | O-ov L.K | 3 |
| 9 | D-va E.Q | 10 |
| 10 | Y-ov M.X | 6 |
| 11 | İ-ov E.K | 3 |
| 12 | M-ev A.L | 4 |
| 13 | M-ov O.T | 8 |
| 14 | V-va B.B | 6 |
| 15 | Ş-lü N.M | 7 |
| 16 | İ-ev S.İ | 10 |
| 17 | R-va L.R | 5 |
| ∑ | | 98 |
| M | | 5.7 |

Cədvəl 2.2.

XI$^b$ sinif şagirdlərinin ilkin anket sorğusunun qiymətləri

| N | S.A.A | Şagirdlərin balları |
|---|---|---|
| 1 | M-zadə F.A | 10 |
| 2 | A-ev Q.R | 8 |
| 3 | E-lı R.R | 4 |
| 4 | T-lu G.Ü | 6 |
| 5 | Ə-ev C.N | 7 |
| 6 | P-va S.A | 3 |
| 7 | Ə-va J.O | 4 |
| 8 | C-ev L.Y | 5 |
| 9 | Z-ov V.H | 8 |
| 10 | H-ov A.L | 3 |
| 11 | Q-ev D.E | 4 |
| 12 | M-va T.O | 9 |
| 13 | Ü-li Z.A | 10 |
| 14 | R-ov Q.Q | 6 |
| 15 | A-ov G.R | 7 |
| 16 | S-li F.A | 5 |
| 17 | Y-ev H.K | 10 |
| 18 | B-va K.C | 8 |
| ∑ | | 117 |
| M | | 6.5 |

Cədvəl 2.3.

X$^a$ sinif şagirdlərin ilkin anket sorğusunun qiymətləri

| N | S.A.A | Şagirdlərin balları |
|---|---|---|
| 1 | M-li E.L | 5 |
| 2 | İ-ov K.P | 4 |
| 3 | Q-va L.T | 8 |
| 4 | Ə-ov O.R | 3 |

Cədvəl 2.3-ün ardı

| | | |
|---|---|---|
| 5 | H-va Ə.M | 6 |
| 6 | B-zadə İ.E | 0 |
| 7 | M-li Z.H | 5 |
| 8 | M-va G.İ | 3 |
| 9 | O-ev S.L | 4 |
| 10 | M-ov D.H | 5 |
| 11 | M-li M.C | 2 |
| 12 | Ə-ov R.R | 6 |
| 13 | H-va P.V | 0 |
| 14 | C-ov Z.K | 3 |
| 15 | R-va G.F | 3 |
| 16 | Z-ov X.M | 7 |
| 17 | C-zadə T.A | 2 |
| 18 | F-ev Y.B | 5 |
| 19 | H-zadə H.Q | 2 |
| 20 | K-va J.Ş | 4 |
| 21 | Q-zadə X.E | 1 |
| ∑ | | 78 |
| M | | 3.7 |

Cədvəl 2.4.

XI[a] sinif şagirdlərinin ilkin anket sorğusunun qiymətləri

| N | S.A.A | Şagirdlərin balları |
|---|---|---|
| 1 | P-ev İ.S | 2 |
| 2 | Ə-va V.Q | 5 |
| 3 | A-ov A.Ş | 0 |
| 4 | Ə-li C.G | 6 |
| 5 | M-va H.E | 1 |
| 6 | Q-zadə N.H | 6 |
| 7 | M-li F.T | 3 |
| 8 | H-li O.Y | 3 |

Cədvəl 2.4-ün ardı

| | | |
|---|---|---|
| 9 | Ə-zə N.T | 4 |
| 10 | Ş-lü X.Y | 7 |
| 11 | C-lı C.P | 0 |
| 12 | Ə-ov E.Ü | 5 |
| 13 | B-va Z.K | 1 |
| 14 | C-ov K.A | 3 |
| 15 | İ-ov V.S | 6 |
| 16 | M-ov İ.L | 8 |
| 17 | B-va A.O | 2 |
| 18 | Ə-ev G.M | 1 |
| 19 | R-li Ə.Ğ | 5 |
| ∑ | | 68 |
| M | | 3.5 |

Uşaqların vətənpərvərliklə bağlı biliklərini artırmaq üçün biz ikinci mərhələdə (öyrədici) fiziki tərbiyə müəllimlərindən xahiş etdik ki, eksperimental siniflərlə fiziki tərbiyə dərslərində və dərsdənkənar məşğələlərdə təklif etdiyimiz tövsiyələrdən istifadə etsinlər.

Bunlar:

- Fiziki tərbiyə dərslərində şagirdləri vətənpərvərlik anlayışı haqqında məlumatlandırmaq;
- Şagirdlərə vətəni müdafiə etməyi, onu düşmələrdən qorumağı, vətənə məhəbbət, qəhramanlıq, yoldaşlıq, sədaqət və başqa nəcib xüsusiyyətləri izah etmək;
- Şagirdlərə tariximiz haqqında məlumat vermək;
- Siniflər arasında hərbi-idman (VHM) yarışları təşkil etmək;
- Məktəblilərlə birgə "döyüş şöhrəti" muzeyi yaratmaq;
- Tarixi günlərə uşaqlarla birgə hazırlıq görülməsi və təntənəli surətdə keçirilməsi;
- Şagirdləri dövlət rəmzlərimiz (dövlət bayrağı, gerbi, himn) haqqında bilikləndirmək;

- Qəhrəmanlarımızın həyatı, onların igidlikləri haqqında biliklər vermək;
- Milli qəhrəmanlarla görüşlərin təşkil olunması;
- Ölkəmizin milli qəhrəmanlarının abidələrini ziyarət etmək;
- Vətənpərvəlik mövzusunda şəkil, rəsm sərgiləri təşkil etmək;
- Şagirdlərimizi hərbi qənimətlər parkına aparılması orda onlara 44 günlük müharibə haqqında məlumat vermək.
- Vətənpərvərlik hisslərinin formalaşdırıması üçün digər dərsədənkənar tədbirlərin təşkil olunması.

## 2.2. Pedaqoji eksperimentin müzakirəsi

2 ay müddətində fiziki tərbiyə müəllimlərinə təklif etdiyimiz tövsiyələrdən istifadə edərək dərsləri keçdikdən sonra eksperimental siniflərin suallara verdikləri cavabların göstəriciləri nəzarət siniflərin göstəricilərinə nisbətən yüksək oldu. Fiziki tərbiyə müəllimləri eksperimentdən sonra eksperimental sinifləri və nəzarət siniflərini bir daha qiymətləndirdilər və nəzarət siniflərin qiymətləri arasında çox fərq olmadı, lakin eksperimental siniflərə isə ilk verdikləri qiymətlərlə eksperimentdən sonra verdikləri qiymətlər arasında fərq yüksək oldu. Biz verilən qiymətləri aşağıdakı cədvəllərdə görə bilərik (Cədvəl 2.5., 2.6., 2.7., 2.8.).

Cədvəl 2.5.

$X^b$ sinif şagirdlərinin eksperimentdən sonra anket sorgularının qiymətləri

| N | S.A.A | Şagirdlərin balları |
|---|---|---|
| 1 | H-ov A.N | 2 |
| 2 | S-ov D.L | 4 |
| 3 | K-ov Q.A | 7 |
| 4 | R-va Y.T | 6 |
| 5 | V-ov N.N | 8 |

Cədvəl 2.5-in ardı

| | | |
|---|---|---|
| 6 | M-ov G.A | 4 |
| 7 | Q-va A.U | 6 |
| 8 | O-ov L.K | 5 |
| 9 | D-va E.Q | 9 |
| 10 | Y-ov M.X | 10 |
| 11 | İ-ov E.K | 4 |
| 12 | M-ev A.L | 3 |
| 13 | M-ov O.T | 8 |
| 14 | V-va B.B | 5 |
| 15 | Ş-lü N.M | 9 |
| 16 | İ-ev S.İ | 6 |
| 17 | R-va L.R | 5 |
| $\sum$ | | **101** |
| **M** | | **5.9** |

Cədvəl 2.6.

XI$^b$ sinif şagirdlərinin eksperimentdən sonra anket sorgularının qiymətləri

| N | S.A.A | Şagirdlərin balları |
|---|---|---|
| 1 | M-zadə F.A | 9 |
| 2 | A-ev Q.R | 6 |
| 3 | E-lı R.R | 5 |
| 4 | T-lu G.Ü | 7 |
| 5 | Ə-ev C.N | 7 |
| 6 | P-va S.A | 5 |
| 7 | Ə-va J.O | 4 |
| 8 | C-ev L.Y | 3 |
| 9 | Z-ov V.H | 5 |

Cədvəl 2.6-nın ardı

| | | |
|---|---|---|
| 10 | H-ov A.L | 6 |
| 11 | Q-ev D.E | 6 |
| 12 | M-va T.O | 8 |
| 13 | Ü-li Z.A | 9 |
| 14 | R-ov Q.Q | 7 |
| 15 | A-ov G.R | 8 |
| 16 | S-li F.A | 6 |
| 17 | Y-ev H.K | 10 |
| 18 | B-va K.C | 7 |
| $\sum$ | | 118 |
| M | | 6.5 |

Cədvəl 2.7.

$X^a$ sinif şagirdlərin eksperimentdən sonra anket sorgularının qiymətləri

| **N** | **S.A.A** | **Şagirdlərin balları** |
|---|---|---|
| 1 | M-li E.L | 9 |
| 2 | İ-ov K.P | 8 |
| 3 | Q-va L.T | 10 |
| 4 | Ə-ov O.R | 7 |
| 5 | H-va Ə.M | 9 |
| 6 | B-zadə İ.E | 8 |
| 7 | M-li Z.H | 10 |
| 8 | M-va G.İ | 10 |
| 9 | O-ev S.L | 9 |
| 10 | M-ov D.H | 8 |
| 11 | M-di M.C | 9 |
| 12 | Ə-ov R.R | 7 |

Cədvəl 2.7-nin ardı

| | | |
|---|---|---|
| 13 | H-va P.V | 8 |
| 14 | C-ov Z.K | 9 |
| 15 | R-va G.F | 9 |
| 16 | Z-ov X.M | 6 |
| 17 | C-zadə T.A | 8 |
| 18 | F-ev Y.B | 7 |
| 19 | H-zadə H.Q | 10 |
| 20 | K-va J.Ş | 9 |
| 21 | Q-zadə X.E | 8 |
| $\sum$ | | 178 |
| M | | 8.5 |

Cədvəl 2.8.

XI[a] sinif şagirdlərin eksperimentdən sonra anket sorgularının qiymətləri

| N | S.A.A | Şagirdlərin balları |
|---|---|---|
| 1 | P-ev İ.S | 8 |
| 2 | Ə-va V.Q | 10 |
| 3 | A-ov A.Ş | 7 |
| 4 | Ə-li C.G | 9 |
| 5 | M-va H.E | 9 |
| 6 | Q-zadə N.H | 8 |
| 7 | M-li F.T | 9 |
| 8 | H-li O.Y | 8 |
| 9 | Ə-zə N.T | 9 |
| 10 | Ş-lü X.Y | 10 |
| 11 | C-lı C.P | 7 |
| 12 | Ə-ov E.Ü | 8 |

Cədvəl 2.8-in ardı

| | | |
|---|---|---|
| 13 | B-va Z.K | 9 |
| 14 | C-ov K.A | 10 |
| 15 | İ-ov V.S | 8 |
| 16 | M-ov İ.L | 10 |
| 17 | B-va A.O | 8 |
| 18 | Ə-ev G.M | 9 |
| 19 | R-li Ə.Ğ | 9 |
| ∑ | | 165 |
| M | | 8.7 |

Biz eyni zamanda hər iki həm ($X^b$ və $XI^b$) nəzarət həm də ($X^a$ və $XI^a$) eksperimental siniflərin orta hesabla və fərq göstəricilərini qeyd etmişik. Bu göstəricilər aşağıdakı cədvəllərdə görmək olar (Cədvəl 2.9., 2.10.).

Cədvəl 2.9

$X^b$ və $XI^b$ sinif şagirdlərin orta hesabla və fərq göstəriciləri

| N | Sinif | Şagird sayı (∑ ) | Orta və fərq göstəriciləri | Göstəricilər |
|---|---|---|---|---|
| 1 | $X^b$ | 17 | İlkin/g (M) | 5.7 |
| | | | Son/g (M) | 5.9 |
| | | | Fərq | 0.2 |
| 2 | $XI^b$ | 18 | İlkin/g (M) | 6.5 |
| | | | Son/g (M) | 6.6 |
| | | | Fərq | 0.1 |

Cədvəl 2.10.

$X^a$ və $XI^a$ sinif şagirdlərin orta hesabla və fərq göstəriciləri

| N | Sinif | Şagird sayı (∑ ) | Orta və fərq göstəriciləri | Göstəricilər |
|---|---|---|---|---|
| 1 | $X^a$ | 21 | İlkin/g (M) | 3.7 |
| | | | Son/g (M) | 8.5 |
| | | | Fərq | 4.8 |
| 2 | $XI^a$ | 19 | İlkin/g (M) | 3.5 |
| | | | Son/g (M) | 8.7 |
| | | | Fərq | 5.2 |

Cədvəllərdən də göründüyü kimi, $X^a$ eksperimental sinifdə ilkin olaraq şagirdlərə verilən balların orta qiyməti 3.7. olduğu halda bu göstərici eksperimentdən sonra artaraq 8.5 olmuşdur. $X^a$ sinifin ilkin göstərciləri ilə son göstəriciləri arasındakı fərq isə 4.8 olmuşdur. $XI^a$ eksperimental sinifdə müəllimlər tərəfindən qiymətləndirilən şagirdlərin ilkin ballarının orta qiyməti 3.5 olmuşdur. Eksperimentimizi keçirdikdən sonra bu qiymət artaraq 8.7 olmuşdur. $XI^a$ eksperimental sinifin ilkin göstəriciləri ilə son göstəriciləri arasındakı fərq isə 5.2 olmuşdur. Nəzarət siniflərin isə nəticələrinə baxsaq $X^b$ nəzarət sinifin ilkin aparılan anket sorğusundan sonra müəllimlərin verdikləri balların orta qiyməti 5.7 olmuşdur. $X^b$ sinifin eksperimentdən sonra verilən balların orta qiyməti isə 5.9 olmuşdur. İlkin və son göstəricilər arasındakı fərq isə 0.2 dir. Gördüyümüz kimi, $X^b$ nəzarət sinifinin ilkin və son göstəriciləri arasında elə də fərq olmamışdır. $XI^b$ nəzarət sinifində ilkin verilən balların orta qiyməti 6.5, eksperimentdən sonra verilən balların orta qiyməti isə 6.6 olmuşdur. İlkin və son göstəricilər arasındakı fərq isə 0.1 olmuşdur. $XI^b$ sinifinin ilkin və son göstəriciləri arasında da $X^b$ sinifində olduğu kimi böyük fərq olmamışdır.

Biz eksperimental və nəzarət siniflər arasında əldə etdiyimiz əvvəl və son qiymətləri histogramda da göstərmişik.




Şək. 2.1. $X^b$ və $XI^b$ sinif şagirdlərin əvvəlki və son göstəriciləri




Şək. 2.2. $X^a$ və $XI^a$ sinif şagirdlərin əvvəlki və son göstəriciləri

Apardığımız tədqiqat işi zamanı fiziki tərbiyə dərslərində şagirdlərimizə vətənpərvərliklə bağlı olan müxtəlif məlumatların çatdırılması, VMH idman yarışlarına daxil olan oyun növlərindən istifadə olunması, şagirdlərimizə tariximiz haqqında məlumatların verilməsi, qəhramanlarımızın həyatı haqqında, onların igidlikləri barəsində biliklərin aşılanması, şagirdlər üçün ekskursiyaların təşkil olunması, qazilərimizlə görüşlərin keçirilməsi və s. hər birinin yerinə yetirdikdən sonra biz sonda aşağıdakı nəticələrə gəldik:

- şagirdlərin vətənpərvərliklə bağlı olan biliklərini artmasına;
- onların vətənə olan məhəbbət hisslərinin daha da güclənməsinə;
- fiziki tərbiyənin məzmun xətlərindən dördüncüsü olan mənəvi-iradi xüsusiyyətlərin formalaşmasına məsələn iradi keyfiyyətlərə: mərdlik, qorxmazlıq, igidlik, cəsarətlilik kimi mənəvi keyfiyyətlərə isə: vətənpərvərlik, yoldaşlıq, dostluq, kollektivçilik, kimi yüksək insani-əxlaqi keyfiyyətlərin formalaşmasına;
- komanda da uğurla qarşılıqlı əlaqə qurmaq bacarığına;
- dərslərinə daha da həvəslə gəlmələrinə;
- qəhramanlar haqqında biliklərin artmasına;
- öz tarixini daha da dərindən bilmələrinə;
- Azərbaycan Silahlı Qüvvələrinin döyüş və əmək ənənlərini yaşatmaq və daha da inkişaf etdirməsinə;
- Azərbaycançılıq ideaologiyalarına layiqincə xidmət etməyə gətirib çıxardı.

Beləliklə tədqiqatın qarşısına qoyulan məqsədə nail olundu və vəzifələr həll edildi.

## NƏTİCƏLƏR

Apardığımız tədqiqatdan sonra aşağıdakı əldə olunan nəticə və təklifləri qeyd edə bilərik:

1. Tədqiqat onu deməyə əsas verir ki, müstəqil respublikamızda həyata keçirilən təhsil islahatının başlıca tələblərinə müvafiq olaraq ümumtəhsil məktəblərində X-XI sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsinin formalaşmasına kompleks şəkildə yanaşmaq zərurəti yaranmışdır. Bu isə öz növbəsində fiziki tərbiyənin təsir vasitələrindən kompleks şəkildə istifadə olunması vəzifəsinin həyata keçirilməsini qarşıya qoyur.

2. Apardığımız tədqiqatda mövzunun problemini və ədəbiyyatlarda qoyuluşunu araşdırarkən aydın oldu ki, məktəblərimizdə fiziki tərbiyə fənninin proqramında vətənpərvərlik tərbiyəsi ilə bağlı məlumatların verilməsi azlıq təşkil edir.

3. Tədqiqat onu da göstərdi ki, ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsində müvafiq idman yarışlarının, ekskursiyaların da özünəməxsus təsir imkanları vardır.

4. Araşdırmalardan aydın oldu ki, fiziki tərbiyə dərslərində və dərsdənkənar məşğələlərdə yuxarı sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsi üzrə iş düzgün qurularsa, fiziki tərbiyə və idmana maraq yaradılarsa, bu zaman şagirdlərin vətənpərvərlik tərbiyəsində uğur əldə ediləcək.

# TƏKLİFLƏR

Tədqiqatı bitirdikdən sonra əldə etdiyimiz nəticələrə uyğun aşağıdakı təklifləri verə bilərik:

1. Tədris proqramlarına vətənpərvərliklə bağlı məlumatların daha çox salınması və müəllimlərin şagirdlərlə bu yöndə müzakirələr aparması uşaqların həm ünsiyyət prosesinin təkminləşməsinə həm də vətənpərvərliklə bağlı biliklərin daha da artırmasına şərait yaradacaqdır.

2. Fiziki tərbiyə dərslərində müəllimlərin dərsin giriş hissəsində hər hansı bir milli qəhrəmanımız haqqında onun keçdiyi döyüş yolu haqqında məlumat verməsi şagirdlərimizin daha çox qəhrəmanlar tanımağlarına gətirib çıxaracaqdır.

3. Ümumtəhsil məktəblərində vətənpərvəliklə bağlı guşələrin yaradılması, foto, rəsm, sərgilərin təşkil olunması, qələbə bayramında, zəfər günündə və yaxud anım günlərində şeir, tamaşaların hazırlanması şagirdlərdə vətənə olan sevgi məhəbbət hissini artırar.

4. Məktəblər və ya siniflər arası hərbi-idman yarışlarının (VMH) keçirilmə sayının artırmaq. Bu zaman uşaqlarda mərdlik, mübarizlik, qazanmaq hissi, qorxmazlıq, məğlubedilməzlik, cəsarət kimi keyfiyyətlərin formalaşmasına, uşaqlar arasında komanda ilə birgə işləmə qabiliyyətinin inkişaf etdirilməsinə gətirib çıxarar.

5. Dərsdənkənar tədbirlərdə şagirdləri qəhramanların abidələrin ziyarətə aparmaq bundan əlavə qənimətlər parkına getmək orda əsgərlərimizin uğurlu döyüş əməliyyatı haqqında məlumatlar vermək - bunlar uşaqlarda vətənpərvərlik hissini fomalaşmasına vətənə olan sevginin daha da artması ilə nəticələnəcəkdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Abbasov A.N., Əlizadə N.Ə. Pedaqogika. Bakı: Renessans, 2001, 202 s.
2. Adışirinov K.F. Həyatı nəsillərə örnək olan qəhrəman: Tarixi səlnamə. Bakı: "Elm və Təhsil", 2019, 172 s.
3. Ağayev Ə.A. Pedaqoji fikrimiz, dünənimiz, bugünümüz, Bakı: Elm, 2000, 299 s.
4. Ağayev H.H. Azərbaycan milli xalq oyunları. Bakı: Azərnəşr, 1992, 80 s.
5. Axundov S.A. Azərbaycan uşaq oyunları. Bakı: Gənclik, 2011, 48 s.
6. Aydəmirov Z.K. Azərbaycanda gənclərin vətənpərvər ruhda tərbiyə olunması başlıca vəzifələrdən biridir. "Olaylar" qəz., Bakı, 2016, 27 may,
7. Aydınoğlu T, Vətənimdir, vətənimdir, vətənim!... Bakı: Xalq qəz., 2012, 5 s.
8. Bayramov Ə.S., Əlizadə.Ə.Ə. Psixologiya. Bakı: Çinar, 2002, 626 s.
9. Bağırov S.X., Hüseynov F.A. Fiziki tərbiyə. Bakı: XXI əsr, 2017, 225 s.
10. Bəşirov B.B. Ali məktəb didaktikası. Bakı: Maarif, 1992, 215 s.
11. Cəfərov N., Çobanov M., Paşayeva Q. Azərbaycanşünaslığın əsasları. Bakı: Pedaqogika, 2013, 255 s.
12. Dünyamalıyeva V. Şagirdlərdə idarəetmə vərdişlərinin formalaşdırılmasında sinifdənxaric və məktəbdənkənar tədbirlərin əhəmiyyəti. Bakı: Aztəhsil, 2018, 5 s.
13. Əliyev N.Ə. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 215 s.
14. Əliyev R. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 200 s.
15. Əliyev İ.M. V-IX sinif şagirdlərinin sinifdənxaric işlər prosesində fiziki tərbiyə və idman tədbirlərinin yolları. Bakı: Nurlan, 2007, 78 s.
16. Əliyev E. Hərbi-idman oyunları. Bakı: Maarif, 2021, s. 47-75
17. Əliyev E.A. Sağlamlaşdırıcı fiziki tərbiyə. Bakı: Müəllim, 2019, 190 s.
18. Əliyev H. Müstəqil Azərbaycan gələcəyi gənclərdir. Bakı: Çaşıoğlu, 1996, 20 s.
19. Gəncəvi N. İsgəndərnamə. Bakı: Adiloğlu, 2011, 208 s.
20. Həşimov Ə.Ş, Sadıqov F.B. Pedaqogika. Tərbiyə nəzəriyyəsinə aid mühazirələr. Bakı: Təbib, 1995, 245 s.

21. Hüseynov F.O. İgidlik və gözəllik oyunları. Bakı: Azərnəşr, 1966, 78 s.

22. Hüseynov F.A. Fiziki tərbiyənin IX-XI siniflərdə planlaşdırılması və qiymətləndirilməsi. Bakı: Müəllim, 2015, 108 s.

23. Xələfov A. Kitabşünaslığa giriş. Bakı: Bakı universiteti, 2001, 400 s.

24. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002, 448 s.

25. Kazımov N.M. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı: Maarif, 2010, 109 s.

26. Qasımov R. Məkrəblərdə hərbi vətənpərvərlik tərbiyəsi // Azərbaycan jur., Bakı: 2019, № 2, 10 s.

27. Qəniyev H.Q. Azərbaycan tarixi. Bakı: Elm və Təhsil, 2019, 499 s.

28. Quliyev B. Fiziki tərbiyənin nəzəri-metodiki və praktik işlərinin əsasları. Bakı: ADPU, 2009, 674 s.

29. Quliyev B, Acalov E, Nəsrullayev M. Ümumtəhsil məktəblərində bədən tərbiyəsi tədrisinin təkminləşdirilməsi yolları. Bakı: Maarif, 1982, 425 s.

30. Quliyev N. İdman məktəbləri. Azərbaycan qəz., Bakı, 2004, 12 noyabr

31. Qurbanov. H.H. Fiziki tərbiyə nəzəriyyəsi və metodikası. Bakı: Adiloğlu, 2001, 217 s.

32. Məcidov N.B. Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası hissə I. Bakı: Nərgiz, 2018, 244 s.

33. Məcidov N.B. İdman nəzəriyyəsi. Bakı: Nərgiz, 2009, 148 s.

34. Məcidov N.B. Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası. II hissə: Əhalinin fiziki tərbiyəsi. Bakı: Müəllim, 2020, 224 s.

35. Məmmədli R., Əhmədova S. Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur" vətənpərvərlik mövzusunda hazırlanmış metodik vəsait. Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016, 60 s.

36. Məmmədov C. Vətənpərvərliklə bağlı təbliğat problemi // Xalq Cəbhəsi, 2014, № 2, 11 s.

37. Mövsümova G. Fiziki tərbiyə mövzusunda fərdi iş. Bakı: ADPU, 2016, 7 s.

38. Musayev İ.Ə. Şagird şəxsiyyətinin hərtərəfli inkişafına fiziki tərbiyə prosesinin təsiri. Bakı: Maarif, 1993, 158 s.

39. Muradxanov M. Pedaqogika. Bakı: Maarif, 2005, 296 s.

40. Nəsrullayev M.Ə. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. Bakı: ADPU, 2012, 371 s.

41. Nəsirov N. Ekskursiya necə təşkil edirəm. Azərbaycan müəllimi qəz., Bakı, 2013, 20 avqust

42. Paşayev T. Diyarşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi. Bakı: Nərgiz, 2002, 160 s.

43. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: Çalıoğlu, 2002, 510 s.

44. Rüstəmov F. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007, 568 s.

45. Rzayev Z. Cəfərov Q. Bədən tərbiyəsi və metodikası. Bakı: İnvest, 2004, 182 s.

46. Safarova S. Ailədə vətənpərvərlik tərbiyəsi // Azərbaycan Respublikasının Təhsil Institunun Elmi əsərləri, 2018, № 3, 251 s.

47. Səmədov R. Məktəblərin qarşısında duran ən mühüm vəzifələrdən biri də hərbi-vətənpərvərlik tərbiyəsidir. Bakı: Nərgiz, 2013, 125 s.

48. Sultanov M., Əhmədov Ə. A.Baxıxanov, Seçilmiş əsərləri. Bakı: Mürtəcim, 2005, 488 s.

49. Talıbov.Y.R. Azərbaycan mütəfəkkirləri və maarifçilərinin əsərlərində ailə tərbiyəsi. Bakı: Maarif, 2002, 269 s.

50. Talıbov Y. Sadıqov F. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Adiloğlu, 2000, 516 s.

51. Talıbov Y.R. Pedaqogika. Bakı: Adiloğlu, 2003, 139 s.

52. Talıbov Y.R., Ağayev Ə.A. və b. Pedaqogika. Bakı: Maarif, 2012, 250 s.

53. Talışlı M. Şagirdlərlə sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili // Azərbaycan məktəbi. Bakı: 2001, № 3 5-8 s.

54. Yusifov M. Azərbaycançılıq. Bakı: Elm və təhsil, 2010, 180 s.

55. Zeynəlova V. Hərbi – vətənpərvərlik tərbiyəsi günümüzün vacib məsələsidir. Bakı: Çalıoğlu, 2007, 5 s.

56. Ахундов М.Я. Щясянбяй Зярдабинин тябиййата аид ясярляри щаггында. Азярняшр, 2010, 24 с.

57. Горбунов Г.Д. Психопедагогика спорта. Москва: М. ФиС., 2006, 122 с.

58. Макаренко А.С. Избранные работы. Баку: Азярняшр, 2012, 455 с.

59. Питкосистов П.И. Педагогика. Москва: 2003, 608 с.

60. Савин Н.В. Педагогика. Просвещение. Москва: 2005, 250 с.

61. Скаткин М.Н. Основа содержания образования в советской школе. В кн.: Основы дидактический. Под красным. Есипов Б.П. издание. Просвещение 1998, 63 с.

62. Щукин К.И. Педагогика. Просвещение. Москва: 2000, 138 с.

63. https://aqreqator.az/az/cemiyyet/1168211

64. https://aznotary.az/storage/422/uDjtchaKNcV%C9%99t%C9%99nsevgisi54.pdf

65. https://multiurok.ru/files/v-t-np-rv-rlik-t-rbiy-si-v-t-ndasliq-t-rbiy sinin.html

66. http://qerbinfo.az/xeber/11061-mktblrd-vtnprvrlik-hissi-nec-alanmaldr.html

67. https://www.muallim.edu.az/news.php?id=13415

68. https://edu.gov.az/az/news-and-updates/8973

69. https://fedai.az/arxiv/www.fedai.az/www.fedai.az/fedai.az/indexcdc2.ht lnewsid=5119

70. http://dashkesen-ih.gov.az/news/725.html

71. https://mod.gov.az/az/pre/21374.html